ISSN: 2706-6185
e-ISSN: 2709-4197

# TARİX ELMLƏRİNDƏ MÜASİR TƏLƏBLƏR VƏ TƏDQİQATLAR

**I BEYNƏLXALQ ELMİ KONFRANS**

**Qədim Diyar Beynəlxalq Elmi Jurnalın xüsusi buraxılışı**

# MODERN REQUIREMENTS AND RESEARCH IN HISTORICAL SCIENCES

**I INTERNATIONAL SCIENTIFIC CONFERENCE**

**Special issue of the Ancient Land International Scientific Journal**

**Bakı, Azərbaycan**
**15 aprel 2026**

# TARİX ELMLƏRİNDƏ MÜASİR TƏLƏBLƏR VƏ TƏDQİQATLAR

**I BEYNƏLXALQ ELMİ KONFRANS**

**Qədim Diyar Beynəlxalq Elmi Jurnalın xüsusi buraxılışı**

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

# MODERN REQUIREMENTS AND RESEARCH IN HISTORICAL SCIENCES

**I INTERNATIONAL SCIENTIFIC CONFERENCE**

**Special issue of the Ancient Land International Scientific Journal**

**15 aprel 2026**

## Beynəlxalq indekslər / International Indices

ISSN: 2706-6185
e-ISSN: 2709-4197
DOI: 10.36719

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessaryto use reference while using the journal materials.
© new.history.bek@gmail.com
© aem.az

## TƏŞKİLAT KOMİTƏSİ

**Sədr**

**Prof. Dr. Kərim ŞÜKÜROV,** AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan

**Sədr müavinləri**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV,** Azərbaycan Elm Mərkəzi / Azərbaycan

**Prof. Dr. Abdulkadir GÜL,** Ərzincan Binalı Yıldırım Universiteti / Türkiyə

**Məsul katib**

**Assoc. Prof. Dr. Sevinc RUİNTƏN,** Bakı Dövlət Universiteti / Azərbaycan

**ÜZVLƏR**

**Prof. Dr. İsmayıl HACIYEV,** AMEA Naxçıvan Bölməsi / Azərbaycan
**Prof. Dr. Əsməd MUXTAROVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Duken MASSİMXANULİ**, R.B.Süleymanov adına Şərqşünaslıq İnstitutu / Qazaxıstan
**Prof. Dr. Cavid QASIMOV**, Van Yüzüncü İl Universiteti / Türkiyə
**Prof. Dr. Hacı HƏSƏNOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Xəzər HÜSEYNOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Ələmdar ŞAHVERDİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arzu XƏLİLZADƏ**, Bakı Dövlət Universiteti / Azərbaycan

## ORGANIZING COMMITTEE

### Chairman

**Prof. Dr. Karim SHUKUROV,** Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS / Azerbaijan

### Deputy Chairmen

**Researcher Mubariz HUSEYNOV,** Azerbaijan Science Center / Azerbaijan

**Prof. Dr. Abdulkadir GUL,** Erzincan Binali Yildirim University / Turkey

### Executive Secretary

**Assoc. Prof. Dr. Sevinc RUINTEN,** Baku State University / Azerbaijan

### MEMBERS

**Prof. Dr. Ismayil HACIYEV,** Nakhchivan Branch of ANAS / Azerbaijan
**Prof. Dr. Esmad MUKHTAROVA,** Baku State University / Azerbaijan
**Prof. Dr. Duken MASSIMKHANULI,** R.B. Suleymanov Institute of Oriental Studies / Kazakhstan
**Prof. Dr. Javid QASIMOV,** Van Centennial University / Turkey
**Prof. Dr. Haji HASENOV,** Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS / Azerbaijan
**Prof. Dr. Khazar HUSEYNOV,** Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Alamdar SHAHVERDIYEV,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Jabi BAKHRAMOV,** Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Arzu KHALILZADE,** Baku State University / Azerbaijan

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

**Xəzər Hüseynov**
Naxçıvan Dövlət Universiteti
tarix elmləri doktoru
https://orcid.org/0009-0009-9396-1903
xezerhuseynov@gmail.com
**Elnar Əlizadə**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0002-5483-6228
elnarelixan2003@gmail.com

# İkinci Dünya müharibəsinin başlanması: Naxçıvan Muxtar Respublikasında hərbi səfərbərlik

***Açar sözlər:*** *İkinci Dünya, Hərbi səfərbərlik, Naxçıvan, Şərur rayonu, Ordubad rayonu, Babək rayonu, Şahbuz rayonu*
***Keywords:*** *World War II, Military mobilization, Nakhchivan, Sharur district, Ordubad district, Babek district, Shahbuz district*

Dövrü mətbuatdan və arxiv sənədlərindən aydın olur ki, İkinci Dünya müharibənin ilk günlərində vətənimizin ayrı-ayrı yerlərində keçirilən saysız-hesabsız mitinq və yığıncaqlar xalqın tam birliyinin parlaq nümunəsinə çevrildi. O ağır, qanlı-qadalı günlərdə fəhlələr, qulluqçular, kolxozçular və ziyalılar dəstə-dəstə hərbi komissarlığa gəlir, döyüşən ordu sıralarına göndərilmələrini xahiş edirdilər. 1941-ci il 03 iyula olan məlumata görə Naxçıvan Muxtar Respublika üzrə 10495 nəfər; o cümlədən 7287 kişi və 3208 nəfər qadın müharibəyə getmək üçün ərizə vermişdir. Bunların 1127 nəfəri partiyaçı, 2158 nəfəri komsomolçu və 7210 nəfəri isə bitərəf idi. Ərizə verənlərdən 1127 nəfər partiyaçı, 2156 nəfər komsomolçu, 3208 nəfər bitərəf

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

səfərbərliyə alınaraq ordu sıralarına yola salmışdı (Hüseynov, 2012, s. 49).

Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinin hərbi şöbəsinin müdirinin göndərdiyi məlumatından aydın olur ki, 22 iyun 1941-ci ildə səfərbərlik elanı ilə əlaqədar Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinə və Naxçıvan hərbi komissarlığına Naxçıvanın şəhər və rayonlarında 150 zəhmətkeş tərəfindən Qızıl (Qırmızı) Orduya erkən çağırış üçün xahişi ilə ərizələr daxil olduğunu bildirməklə səfərbərliyə alınmasını qeyd edirdi.

1942-ci ilin fevral ayına olan məlumata görə Naxçıvan şəhəri üzrə 116 nəfər, Culfa rayonu üzrə 14 nəfər, Ordubad rayonu üzrə 11 nəfər, Əbrəqunus (Culfa) rayonu üzrə 40 nəfər, Şahbuz rayonu üzrə 60 nəfər, Şərur rayonu üzrə 177 nəfər və Naxçıvan (Babək) rayonu üzrə 52 nəfər müəllim hərbi komissarlığa ərizə verərək səfərbərliyə alınmış, cəbhələrdə vuruşmaq üçün göndərilmələrini xahiş etmişdilər (NMR DA. f.1.siy.1.iş 36, v.19).

Naxçıvan rayon partiya təşkilatı partiyanın ən yaxşı oğullarından, partiya üzvü namizədlərindən 677 nəfərini, komsomol təşkilatı isə 2567 nəfəri ordu sırasına göndərmişdir. Onların bir çoxu “416-cı Qızıl bayraqlı” Taqanroq diviziyasında olmuşlar (NMR DA. f.1.siy.2.iş 14, v.44-45).

İkinci Dünya müharibəsi illərində təkcə Sədərək kəndindən 462 nəfər döyüşçü ordu sıralarına getmiş, bunlardan 199 nəfəri geri qayıtmışdır.

1941-1945-ci illərdə Ordubad rayonundan İkinci Dünya müharibəsinə təqribən 5600 nəfərə yaxın rayon hərbi komissarlığı tərəfindən səfərbərliyə alınmış və onlardan 760 nəfər yaralı geri qayıtmışdır (Cəfərov, 2015, s. 28).

İkinci Dünya müharibəsi illərində Şərur rayonu üzrə 4.007 nəfər döyüşən ordu sıralarına səfərbər edilmiş, onlardan 394

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

nəfəri həlak olmuş, 2.395 nəfər itkin düşmüşdür. Ölkədə səfərbərlik edildiyi gündən əli silah tutan Zeyvə-Düdəngəlilər (Şərur rayonu) də könüllü surətdə ordu sıralarına getmək üçün müraciət etmiş, bunların 250 nəfəri müharibəyə yola salınmışdır ki, onların da 106 nəfəri döyüşlərdə həlak olmuşdur.

Müharibə illərində bu kəndlərdən bir nəfər də olsun əsgəri çağırışdan yayınmamış, səfərbərlik yaşına çatmış hər kəs cəbhəyə yola düşmüşdür. Müharibəyə gedənlər içərisində 16 nəfər müəllim, 10 nəfər həkim, 19 nəfər peşəkar hərbçi olmuşdur. Onların 17 nəfəri müxtəlif rütbəli zabitlər, 20 nəfərdən çoxu isə starşina və serjant olmuşdur (Şərq qapısı, 2005).

Müharibənin ilk günlərindən Kəngərli (Şərur) yurdunun zəhmətkeşlərinin bütün səyləri vahid məqsədə-faşizmin darmadağın edilməsinə yönəlmişdi. Onlar böyük ruh yüksəkliyi ilə yekdillik, hərbi dövrünün bütün çətinliklərini dəf etməyə hazır olmaq əzmini nümayiş etdirdilər. Kəngərli kəndlərində keçirilən mitinq və yığıncaqlardan sonra fəhlələr, kolxozçular, ziyalılar dəstə-dəstə hərbi komissarlığa gələrək cəbhəyə getmələrini xahiş edirdilər. Bu ağır illərdə Kəngərli ərazisindən 1370 nəfər cəbhəyə getmişdir. Onlardan 600 nəfəri faşizmə qarşı mübarizədə müharibə veteranı adını qazanmışdır (Cəfərov, 2015, s. 29).

Babək (Naxçıvan) rayonundan müharibəyə 1250 nəfər göndərildi, bu igidlərin 1050 nəfəri döyüş meydanlarında həlak oldu, itkin düşdü (Şərqin səhəri, 2009.4 may).

Bu ağır, qanlı müharibədə Cəhri sovetliyindən 613 nəfər faşizmə qarşı ölüm-dirim mübarizəsi aparmış, onların yarıdan çoxu geri qayıtmamış, sağ qalanların əksəriyyəti isə əlil olmuşdur (Şərqin səhəri, 2005).

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

Babək rayonunun Nehrəm kəndindən müharibəyə 641 nəfər yollanıb, onlardan 409 nəfəri Vətən yolunda qəhramancasına həlak olmuşdur (Şərqin səhəri, 2005).

İkinci Dünya müharibəsinin ilk günlərində muxtar respublikanın həkim və orta tibb işçilərinin xeyli hissəsi Sovet Ordusu və Hərbi Dəniz Donanması sıralarına səfərbərliyə alınmışdır. Həkimlərdən Tofiq Sultanov, Mehdi Bağırov, Abbas Əliyev, Əbdüləli Tahirov, Əkbər İsmayılov, Camal İbrahimov, Əkbər Fəttahov, Valentina Suxova, Abdulla Abdullayev, Əzim Kazımov, Hacı Mehdiyev, Cabbar Cəfərov, orta tibb işçilərindən Dilbər Təhməzbəyova, Zərifə Camalbəyova, Xeyrənsə Abdullayeva, Səffiyyə Sultanova və başqalarının düşmən üzərində qələbədə böyük xidmətləri olmuşdur (Cəfərov, 2015, s. 29).

Müharibə günlərində vacib məsələlərdən biri də SSRİ Dövlət Müdafiə Nazirliyinin "Əhali arasında ümumi hərbi hazırlığın keçirilməsi" haqqında qərarını həyata keçirməkdən ibarət idi. Şəhər və rayon partiya komitələrinin hərbi şöbələri bu tədbirə fəal qoşulmuşlar. Nəticədə respublikada I, II, III, IV dərəcəli 5118 nəfər atıcı əsgər, 1425 nəfər minamyotçu, avtomatçı və plemyotçu hazırlanmışdır ki, bunların da 25 nəfəri qadın olmuşdur (NMR DA.f.299.siy.1.iş 48, v.9).

İkinci Dünya Müharibəsi günlərində muxtar respublikanın komsomol təşkilatlarının işi haqqında yazılan arayışdan aydın olur ki, respublikanın komsomol təşkilatları gənclərin hərbi tərbiyəsi üzrə əhəmiyyətli işlər görmüşdü. Müharibə dövründə 6485 komsomolçu cəbhəyə göndərilmişdir. Qızıl (Qırmızı) ordu üçün respublikada komsomol təşkilatlarının köməyi ilə hərbi mütəxəssislərin hazırlanması ilə bağlı mütəmadi işlər aparılırdı. Müharibə dövrü ərzində 2889 komsomolçu ümumi məcburi hərbi təhsil bölmələrində 110 saatlıq ümumi məcburi hərbi təhsil proqramını keçərək, müxtəlif hərbi ixtisaslara yiyələnmişlər.

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

Təkcə müharibə vaxtı komsomolçulardan 100 nəfər pulemyotçu, 155 nəfər avtomatçı, 70 nəfər minomyotçu, 432 qırıcı tanklar, 527 nəfər snayperçi, 35 nəfər əl pulemyotçusu, 166 nəfər tibb bacısı, 467 nəfər sanitar drujinaçı, 38 nəfər teleqrafçı, 10 nəfər telefonçu, 143 nəfər döyüş süngülərinin təlimatçıları hazırlanmışdı (Cəfərov, 2015, s. 30).

İkinci Dünya müharibəsi illərində Naxçıvan Muxtar Respublikasından 29025 nəfərdən çox əsgər düşmənə qarşı rəşadətlə vuruşaraq misilsiz şücaət göstərmişdir. Onlardan 15325 nəfəri döyüşlərdə həlak olmuşdur (Hüseynov, 2012, s. 49).

1941-1945-ci illər müharibəsində Sovet İttifaqı xalqları bütün hərbi, iqtisadi və ideoloji qüvvələrini səfərbər edərək bu ağır müharibədən tarixi qələbə ilə çıxdılar. SSRİ xalqlarının birgə qəhrəmanlığı və rəşadəti bütün bəşəriyyəti xilas etdi. SSRİ xalqları Hitler Almaniyası və militarist Yaponiya üzərində çaldığı misilsiz qələbə ilə bütün bəşəriyyəti faşizm və militarizm əsarətinə düşmək təhlükəsindən qorudu. Məhz bu qələbə sayəsində Avropa və Asiya ölkələrinin xalqları faşizm və militarizm əsarətindən azad oldular, sülh, demokratiya, milli istiqlaliyyət və müstəqil inkişaf yoluna qədəm qoydular.

## Ədəbiyyat

1. Bağırov, V. (2010). *İkinci cahan müharibəsində Ordubad və ordubadlılar*. Elm və təhsil.
2. Cəfərov, F. A. (2015). *Naxçıvan İkinci Dünya müharibəsi illərində*. ADPU.
3. Hüseynov, X. A. (2012). *Avropa ölkələrində partizan və antifaşist müqavimət hərəkatında Azərbaycan SSR-in Naxçıvan MSSR-dən olan döyüşçülərinin döyüş yolu (Dərs vəsaiti)*. ADPU.

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

4. Mədətov, Q. (1965). *Azərbaycan Böyük Vətən müharibəsində (1941–1945-ci illər).*
5. NMR DA. (n.d.). *Fond 1, siyahı 1, iş 36.*
6. NMR DA. (n.d.). *Fond 1, siyahı 2, iş 14.*
7. NMR DA. (n.d.). *Fond 299, siyahı 1, iş 48.*
8. *Şərq qapısı* qəzeti. (n.d.).
9. *Şərqin səhəri* qəzeti. (n.d.).

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

**Saidə Babayeva**
Gəncə Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0008-6353-9878
saidababayeva962@gmail.com

# Ortaq türk abidələri arxeoloji və yazılı tədqiqatlarda

***Açar sözlər:*** *türk, tarix, xalq, cəhalət, abidə*
***Keywords:*** *Turk, history, people, ignorance, monument*

Türkdilli xalqlar dünyanın ən qədim xalqlarından biridir. Türk xalqlarının ortaq tarixinin birlikdə araşdırılmasına çox gec başlanılmışdır. Yazılı mənbələrdə müasir türk xalqlarının əksəriyyətinin tarixi əksini tapmamışdır. Bu boşluğu arxeoloji tapıntılar müəyyən qədər doldurur. Bu baxımdan Orxon-Yenisey abidələrindən Qədim Göytürk dövləti, türk tayfaları, türk dili, adət-ənənələri haqqında geniş məlumatı almaq olur. Bu abidələr VI-VIII əsrlərdə mövcud olmuş böyük Göytürk imperatorluğunun yadigarlarıdır.

Türkdilli xalqların çox geniş ərazilərdə məskunlaşması arxeoloji qazıntılar zamanı təsdiqini tapmışdır. Qədim Orxon-Yenisey abidələri və onun çoxsaylı bilim adamları tərəfindən geniş şəkildə araşdırılması, bu möhtəşəm abidənin türk xalqlarına aid olduğu qənaətinə gəlmələri yanlış fikirlərə son qoydu. “Runik yazıları haqqında ilk məlumat I Pyotrun dövründə olmuşdur. Bu yazılara aid ikinci məlumat S.Reme zov tərəfindən verilmişdir” (Azərbaycan tarixi, 2001, s. 297). Lakin bu məlumatlar təsadüfi xarakter daşıyırdı. Sonralar bu abidələr haqqında uzun müddət Sibirdə yaşamış İsveç zabiti İohan Stralenberq təsdiqedici sənədlərlə məlumat verir.

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

XIX əsrin əvvəllərində (1822-ci ildə) Qriqori Spasski "Sibirskiy vestnik" ("Si bir xəbərləri") jurnalında bu abidələr haqqında məqalə çap etdirir, sonra bu məqalə latın dilinə tərcümə edilir və beləliklə də, türk runik yazılar haqqında məlumat dünya alimlərinə məlum olur. 1889-cu ildə Fin alimləri Yenisey yazılarının atlasını çap edirlər. Onlar bu abidələrin finlərə aid olduğunu göstərməyə çalışırlar. Lakin sonralar Fin alimlərinin bu rəylərinin doğru olmadığı məlum olur.Orxon-Yenisey abidələrinin hansı xalqa aid olması məsələsinin həllində rus tədqiqatçısı N.M.Jadrintsevin 1889-cu ildəki ekspedisiyası böyük rol oynamışdır. "N.M.Jadrintsev Monqolustanda Koşa-Saydam gölü vadisində Orxon çayı sahilində "Gültəkin şərəfinə abidə" və "Bilgə xan abidəsi"ni tapır" (Mustafazadə, 2009, s. 122). Bu abidələr iki dildə yazılmışdır. Daşların üzərində məlum olmayan yazılardan başqa, daşların arxa tərəfində Çin dilində olan yazılardan məlum olur ki, bu abidələr türk xaqanı Bilgə (Mogilyan) xan və onun kiçik qardaşı Gültəkinin şərəfinə qoyulmuşdur. Beləliklə də, Orxon-Yenisey abidələrinin türk xalqlarına aid olması qəti məlum olur. 1890-cı ildə Orxon çayı vadisinə Fin ekspedisiyası göndərilir. 1891-ci ildə məşhur rus alimi V.V.Radlovun rəhbərliyi altında Rusiya Elmlər Akademiyası Orxon çayı sahillərinə ekspedisiya təşkil edir. 1892-ci ildə hər iki ekspedisiyanın nəticələri atlas şəklində çap olunur. Burada qeyri-məlum yazıların surətləri, abidələrin olduğu yerlərin xəritələri verilir. Beləliklə də, həmin sehirli yazıların gec-tez oxunması üçün imkan və şərait yaranır.

Bu sehirli yazıların oxunması alimlərin qarşısında böyük bir problem olur. Bəziləri bu yazıları məlum əlifbalarla tutuşdurub oxumaq istəmişlər, lakin müvəffəq ola bilməmişlər. Danimarka alimi V.Tomsen runik yazıları oxumaqda bu üsuldan istifadə etmir. V.Tomsen başqa yol seçir. O, runik yazılar üzərində uzun müddət müşahidə aparır. Müşahidə zamanı V.Tomsen müəyyən

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

edir ki, bu yazılar sağdan sola oxunur. Bundan başqa o, müəyyən edir ki, runik yazılarda bəzi işarələr biri-birinə yaxın, bəziləri isə biri-birindən uzaq yazılmışdır. Abidələrdə işarələrin belə vəziyyətdə olmasını V.Tomsen səslərin iki yerə bölünməsi, yəni ön dil və arxa dil səslərinə bölünməsi ilə izah edir. Belə bölgü isə türk dillərinə məxsusdur. Bundan sonra V.Tomsen Gültəkin abidəsindən tenrı, Gültəkin, Bilgə xan sözlərini seçib oxuyur və beləliklə, sehirli yazıları oxumaq açarını tapır və nəhayət o, 1893-cü idlə runik yazılarını tamamilə oxuyur. V.Tomsenin bu kəşfi dilçilikdə böyük bir yenilik idi. V.Tomsenin kəşfindən sonra rus alimi Radlov 1894-1895-ci illərdə Gültəkin və Bilgə xan abidələrinin mətnlərini və tərcüməsini nəşr edir. Orxon-Yenisey abidələ rinin tapılması türk dillərinin qədim dövrlərinin öyrənilməsi üçün çox gözəl material vermişdir. Bundan başqa bu abidələr qədim türk xalqlarının tarixini, etnoqrafiyasını öyrənməyə çox kömək edir. Türk xalqlarının minilliklərlə ölçülən tarixi və dövlətçilik ənənələrinin olması arxeoloji qazıntılarda təsdiqini tapır (Muxtarova, 2013, s. 16).

## Ədəbiyyat


1. Azərbaycan tarixi. (2001). VII cilddə, I cild. Elm nəşriyyatı.
2. Mustafazadə, T. (2009). *Ümumi tarix. I kitab (Ən qədim zamanlardan XVIII əsrin sonuna qədər)*.
3. Muxtarova, Ə. (2013). *Türk xalqlarının tarixi (Qədim və Orta əsrlər): Ali və orta məktəblər üçün dərslik*.

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

**Arzu Xəlilzadə**
Bakı Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-9919-3970
arzuxelilzade89@gmail.com

# Azərbaycan Respublikasında kosmik sənayenin inkişafı tarixinə dair

***Açar sözlər:*** *informasiya-kommunikasiya texnologiyaları, milli peyk, kosmik sənaye, rabitə, Azərkosmos, kosmos, orbit*
***Keywords:*** *information and communication technologies, national satellite, space industry, communication, Azerkosmos, space, orbit*

Azərbaycan Respublikasında həyata keçirilən diversifikasiya siyasətinin əsas elementlərindən biri də yaxın və ortamüddətli dövrdə İKT-nın ölkə iqtisadiyyatında üstünlüyünü təmin etməkdir. Bu strateji xəttin əsas istiqamətlərindən biri isə kommunikasiyaların ən son innovativ meyarlarını tətbiq etmək, bu texnologiyaların gəlirtutumlu sahəyə çevrilməsi yolu ilə iqtisadiyyatda modernləşməni gücləndirməkdir. Bu baxımdan, kosmik sənaye təkcə kosmosu fəth etmək vasitəsinə deyil, həm də qlobal və regional sosial-iqtisadi məsələlərin, elmi-texniki problemlərin həlli üçün əsas vasitəyə çevrilmişdir. Azərbaycan hökuməti ölkədə İKT sektorunun sürətli inkişafına çalışır və bu sahədə uğurlara nail olmuşdur. Bu baxımdan 2003-cü ilin fevralında Ümummilli lider Heydər Əliyevin imzaladığı Fərmanla regionda ilk dəfə olaraq qəbul edilən İKT-nin inkişafı üzrə 10 illik Milli Strategiya mühüm əhəmiyyətə malikdir (Azərkosmos” Açıq Səhmdar Cəmiyyəti, 2010). Peyk dövlətinə çevrilmək Azərbaycan üçün strateji hədəf idi. Buna görə də,

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

Prezident İlham Əliyev 2008-ci ilin noyabrın 4-də Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında Sərəncam imzaladı (Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı). Bu, artıq kosmik sənaye sahəsində daha keyfiyyətli mərhələnin başlanması demək idi.

Azərbaycanda kosmik sahənin inkişafı üçün müəyyən mexanizmlər hələ müstəqilliyin ilk illərində yaradılmışdır. 1992-ci il fevralın 21-də Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə kosmik fəzanın öyrənilməsi sahəsində dövlət siyasətini həyata keçirmək, milli aerokosmik proqramları hazırlamaq və yerinə yetirmək, beynəlxalq kosmik layihələrə dair işləri əlaqələndirmək və idarə etmək məqsədilə ilə Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyinin əsasında Azərbaycan Milli Aerokosmik Agentliyi (MAKA) yaradılmışdır (Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos). (n.d.). MAKA 2003-cü ilə qədər Azərbaycan Respublikasının Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinin tabeliyində öz fəaliyyətini davam etdirmiş və yenidən Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyinə verilmişdir.

Kosmik sənayenin inkişafı sahəsində ən mühüm addımlardan biri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2010-cu il 3 may tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində “Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinin (Azərkosmos ASC) təsis edilməsi olmuşdur (Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos), n.d). “Azərkosmos”un təsis edilməsində əsas məqsəd telekommunikasiya peykinin orbitə çıxarılması, idarə edilməsi və istismarı işlərinin həyata keçirilməsi idi (“Azərkosmos” Açıq

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

Səhmdar Cəmiyyəti, 2010). "Azərkosmos"un əsas məqsədləri Azərbaycanın telekommunikasiya, Yer müşahidə və digər təyinatlı peyklərin orbitə çıxarılması, idarə edilməsi və istismarı işlərinin həyata keçirilməsindən, beynəlxalq kosmik layihələr çərçivəsində yerinə yetirilən fəaliyyətin əlaqələndirilməsi, beynəlxalq təşkilatlarla, həmçinin xarici dövlətlərin kosmik agentlikləri ilə kosmosdan dinc məqsədlərlə istifadə sahəsində əməkdaşlıq edilməsindən ibarət idi.

Araşdırılan illərdə kosmik sahənin inkişafı ilə əlaqədar praktiki işlərin görülməsi davam etdirildi. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 oktyabr tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurası yaradıldı (Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos), n.d.). Kosmik fəaliyyət sahəsində dövlət proqramlarından irəli gələn vəzifələrin həyata keçirilməsinə nəzarət, kosmik fəzanın, o cümlədən uzaq kosmosun öyrənilməsinə və istifadəsinə dair işlərin aparılması istiqamətində sistemli araşdırmanın təşkil edilməsi, Azərbaycan Respublikasında və xaricdə kosmik fəaliyyətin nəticələrindən istifadənin elmi-texniki, istehsal, istifadəçi, təhsil və innovasiya strukturunun formalaşdırılmasının kompleks problemlərinin həllinə dair təkliflərə baxılması və tövsiyələr verilməsi, kosmik tədqiqatların, o cümlədən kosmik fəzada tədqiqatların aparılması, belə tədqiqatlardan istifadə və kosmik sənaye sahəsi ilə bağlı təkliflərin hazırlanması və s. şuranın funksiyalarına aid idi (Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı).

Azərbaycanın ilk telekommunikasiya peyki olan "Azərspace"in orbitə buraxılması bu sahədə atılan əhəmiyyətli praktiki addımlardan oldu. "Azerspace-1" peyki üzərindən

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

Azərbaycan, türk, rus, ingilis və digər dillərdə, yerli və beynəlxalq səviyyəli, ümumilikdə, 100-ə yaxın televiziya və radio kanalı yayımlanır. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa Oyunları, həmçinin ən önəmli idman hadisələrindən biri olan IV İslam Həmrəyliyi Oyunları, Formula-1 yarışları "Azerspace-1" peyki üzərindən yayımlanmışdır.

2014-ci il iyunun 30-da "Azersky" Yerin məsafədən müşahidəsi, bir neçə il sonra isə "Azerspace-2" telekommunikasiya peykinin orbitə çıxarılması ölkə tarixində mühüm hadisə oldu. 2018-ci il sentyabrın 26-da "Azerspace-2" peyki orbitə buraxılanda Prezident İlham Əliyev peyk layihələrinin həyata keçirilməsinin əsas məqsədlərini vurğulayaraq Azərbaycan xalqını təbrik etdi: "*...Peyklərin orbitə çıxarılması dövlətimizin gücünü göstərir, bizim siyasətimizi göstərir... Bu peyklərin çox böyük əhəmiyyəti var. İlk növbədə, Azərbaycan informasiya təhlükəsizliyi baxımından daha da önəmli addım atır  Azərbaycanın kosmik sənayedə əldə etdiyi uğurlar, eyni zamanda, qeyri-neft sektorumuzu inkişaf etdirir, qeyri-neft sənayemizi irəliyə aparır".*

İkinci Qarabağ müharibəsində qazanılan qələbədə Azərbaycanın peyk sisteminin əhəmiyyətli rolu olmuşdur. Bu peyklərin, xüsusilə "Azersky" məsafədən müşahidə peykinin imkanları Azərbaycana böyük üstünlüklər qazandırmışdır. Müharibənin gedişində "Azersky"dan əldə olunan təsvirlər operativ surətdə ordumuz üçün lazımi informasiyanın ötürülməsində xüsusi rol oynamışdır. Bu informasiyaların əsasında düşmənin hərbi obyektləri və anbarları, zirehli texnikaları darmadağın edilmişdir.

Beləliklə, milli peyklər vasitəsilə ölkənin sosial-iqtisadi inkişafına dəstək davam etdirilməkdədir. Azərbaycanın peyk şəbəkəsi dövlətin suverenliyinə xidmət etmək və biznes layihəsi olmaqla yanaşı, həm də sosial-iqtisadi inkişafa təkan verir.

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

Kosmik sahə beynəlxalq əməkdaşlıq üçün çox möhkəm zəmindir və bu istiqamətdə Azərbaycanda müəyyən bir mexanizm mövcuddur. Belə ki, "Azərkosmos" beynəlxalq kosmik layihələr çərçivəsində xarici dövlətlərin kosmik agentlikləri ilə kosmosdan dinc məqsədlərlə istifadə üzrə qarşılıqlı fayda gətirən əməkdaşlıqlar qurur. Bu da öz növbəsində Azərbaycanın beynəlxalq ictimaiyyət qarşısında intellektual nüfuzunun daha da möhkəmlənməsinə xidmət edir.

Azərbaycan kosmik sənaye sahəsində beynəlxalq əməkdaşlığı getdikcə inkişaf etdirir. Məsələn, 2022-ci ildə Azərbaycanın Türkiyənin İstanbul şəhərində 876 şirkət və 24 universitetin iştirakı ilə keçirilən "SAHA EXPO 2022" müdafiə, aerokosmik və kosmik sənaye sərgisində milli stendi ilə təmsil olunması mühüm tarixi hadisədir. Yüksək texnologiyalı məhsulların nümayiş etdirildiyi beynəlxalq tədbirdə müdafiə, aerokosmik, dənizçilik və kosmik sənaye sahələrində strateji əhəmiyyətli bir çox məhsullar ilk dəfə təqdim olunmuşdur (Azərbaycan İstanbulda "SAHA EXPO 2022" müdafiə, aerokosmik və kosmik sənaye sərgisində təmsil olunur, 2022).

Beləliklə, Azərbaycanın kosmik sənaye strategiyası ilə bağlı məqsədlərə nail olmaq üçün əlverişli perspektivlər mövcuddur. Kosmik rabitə digər əlaqə vasitələrinə nisbətən 5 dəfə ucuzdur. Milli peykimizin kosmosa çıxarılması Azərbaycanın etibarlı informasiya təhlükəsizliyi sisteminin formalaşmasını təmin etməklə yanaşı, telekommunikasiya sisteminin inkişafına ciddi təkan verəcək.

## Ədəbiyyat

1. "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti. (2010). *"Azərkosmos" ASC-nin təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.* https://ict.az/az/content/176

2. “Azərkosmos” Açıq Səhmdar Cəmiyyəti. (2010). *“Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi*. http://www.e-qanun.az/framework/21072
3. Azərbaycan İstanbulda “SAHA EXPO 2022” müdafiə, aerokosmik və kosmik sənaye sərgisində təmsil olunur. (2022). https://ordu.az/az/news/238454/azerbaycan-istanbulda--saha-expo-2022-mudafie,-aerokosmik-ve-kosmik-senaye-sergisinde
4. Azərbaycan Milli Aerokosmik Agentliyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. (n.d.). http://www.e-qanun.az/framework/6873
5. Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (n.d). https://e-qanun.az/framework/15589
6. Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos). (n.d.). Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. https://mincom.gov.az/az/view/organization/29
7. Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurası haqqında Əsasnamə. (2020, 23 sentyabr). http://www.e-qanun.az/framework/46033
8. Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının yaradılması, “Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının Əsasnaməsi”nin və “Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının tərkibi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı. (2017, 17 oktyabr). http://www.e-qanun.az/framework/46033

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

**Elmira Aliyeva**
Ganja State University
https://orcid.org/0000-0001-8324-9968
elka.emma@mail.ru

# The Importance of Telegraph Lines in the South Caucasus During XIX Century

***Keywords:*** *Telegraph, South Caucasus, communication technologies, nineteenth century, Russian Empire*
***Açar sözlər:*** *Teleqraf, Cənubi Qafqaz, rabitə texnologiyaları, XIX əsr, Rusiya imperiyası*

The nineteenth century is widely recognized as a period characterized by swift technological improvement and necessary transformations in communication. Among the innovations of this era, the telegraph represented an enormous breakthrough that drastically altered the speed and efficiency of information exchange. Before the emergence of telegraph communication, the transmission of official reports, commercial information, and news depended primarily on physical transportation, which often required several days or even weeks. The introduction of electrical communication made it possible to transmit messages within a very short time, thereby transforming administrative management, economic activities, and military operations (Altstadt, 1992). The Caucasus region, and particularly the South Caucasus, occupied a strategic position in the nineteenth century. The area became a significant arena of political and strategic interest for enormous and main regional powers. Throughout most of this period, the region was incorporated into the political structure of the Russian Empire, while also maintaining important connections with neighbors such as the

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

Ottoman Empire and Qajar Iran. Under these circumstances, the development of communication infrastructure was considered crucial for maintaining political authority and administrative control. Consequently, the establishment of telegraph lines in the South Caucasus represented not only a technological innovation but also a strategic instrument for strengthening imperial governance (Beauchamp, 2001).

**Demonstrating novel technology:** The global spread of telegraph technology occurred in the middle of the nineteenth century. That system allowed messages to be transmitted through electrical signals sent along wires over long distances. One of the most crucial developments that enabled the practical utilize of telegraph communication was the coding system introduced by the American inventor Samuel Morse. That system, commonly known as Morse code, allowed letters and numbers to be represented by combinations of short and long signals. The application of Morse code made telegraph communication efficient and reliable. Messages that previously required days or weeks to reach their destination however, it could be delivered within hours with that novel technology. As a result, the telegraph swiftly became an essential tool of modern communication systems (Brower, 2003). Governments, military institutions, and commercial organizations quickly recognized the advantages of that novel technology and began to incorporate telegraph networks into their administrative and economic structures. The construction of telegraph infrastructure in the South Caucasus accelerated during the second half of the nineteenth century. The Russian Empire played a decisive role in the development of those communication networks. As the empire managed vast territories extending across Eurasia, efficient communication between administrative centers became a critical importance. Thus, the imperial authorities initiated the

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

construction of telegraph lines connecting major administrative and military centers (Cookson, 2003). Tbilisi, which served as one of the most crucial administrative centers of the Caucasus, became a key hub within the regional telegraph system. According to expanding, telegraph lines were gradually extended to other important cities, including such as Baku and Yerevan. The expansion of telegraph infrastructure strengthened the integration of the South Caucasus into the broader communication network of the Russian Empire. Through those connections, the region became linked not only internally at the same time to wider imperial and international communication routes. One of the most essential utilizations of telegraph communication in the South Caucasus was in the venues of governance and military organization. According to imperial authorities, the ability to receive information rapidly from distant provinces was of critical importance. The telegraph system enabled local administrators to report events and developments directly to central authorities without long postponements. That improvement in communication significantly accelerated the administrative decision-making process. Government officials were able to respond more effectively to political, social, or economic developments occurring in the region. Consequently, the telegraph contributed to the strengthening of centralized governance and administrative efficiency (DergiPark məqaləsi, n.d.). According to military perspective, telegraph communication also played an crucial role. The Caucasus region included sensitive border areas and was often influenced by geopolitical tensions involving neighboring powers, such as Ottomans and Qajars. The telegraph allowed military commanders to exchange information swiftly and coordinate their actions more effectively (King, 2008). Due to that capability of novel tool, government

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

improved the organization of military operations and enhanced the overall security management of the region. The extending of telegraph communication also had crucial consequences for economic activities in the South Caucasus. During the second half of the nineteenth century, the region experienced grandeur economic development. For instance, the city of Baku emerged as one of the world's leading centers of oil production and trade. The establishment of telegraph networks allowed commercial information to be transmitted rapidly between different markets. Merchants, investors, and industrial entrepreneurs could acquire timely information about market conditions, price changes, and commercial opportunities. That improvement in information flow contributed to more effective economic decision-making (The Times, 1854). The oil industry in Baku benefited and thrived especially from that innovation. As oil production expanded and international demand increased, fast communication became crucial for coordinating production, transportation, and trade. Telegraph communication thus played a grandeur role in integrating the region's economy into global commercial networks. In addition to serving regional and imperial communication needs, telegraph lines in the South Caucasus at the same time became an important part of international communication routes. By the end of the nineteenth century, several telegraph lines linking Europe with Asia passed through this region. The geographical position of the South Caucasus made it a convenient transit zone for international telegraph networks. As a result, the region obtained increased strategic importance within global communication infrastructure. Those connections further strengthened the political and economic importance of the South Caucasus within broader Eurasian networks (Kavkazskiy kalendar na 1879 god., 1878).

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

The expansion of telegraph communication systems in the South Caucasus in the nineteenth century produced significant transformations in the region's political, economic, and military structures. The telegraph allowed information to be transmitted swiftly and conveniently across long distances, which improved administrative efficiency, facilitated military coordination, and supported the thriving of commercial activities. In particular, the growth of the oil industry in Baku demonstrated how technological advances and opportunities in communication could impact economic development. At the same time, the integration of the South Caucasus into wider imperial and international telegraph networks increased the strategic necessity of the region. Overall, the extending of telegraph infrastructure played a crucial role in the modernization of communication systems in the South Caucasus (A handbook for travellers in Russia, Poland, and Finland, 1865).

## References


1. Altstadt, A. L. (1992). *The Azerbaijani Turks: Power and identity under Russian rule*. Stanford: Hoover Institution Press.
2. Beauchamp, K. (2001). *A history of telegraphy: Its technology and application*. Institution of Electrical Engineers.
3. Brower, D. R. (2003). *Russian empire and its rivals*. Bloomington: Indiana University Press.
4. Cookson, G. (2003). *The cable: The wire that changed the world*. Tempus.
5. King, C. (2008). *The ghost of freedom: A history of the Caucasus*. Oxford University Press.
6. *Kavkazskiy kalendar na 1879 god*. (1878). Glavnym Upravleniyem Namestnika Kavkaza.

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

7. *The Times*. (1854, November 7).
8. *A handbook for travellers in Russia, Poland, and Finland*. (1865). John Murray.
9. DergiPark məqaləsi. (n.d.). https://dergipark.org.tr/en/download/article-file/3421982

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

**Bikə Fərmanzadə**
ADPU Quba filialı
https://orcid.org/0000-0003-4680-420X
bikefermanzade@gmail.com

# İran–İsrail qarşıdurmasının tarixi kökləri və müasir geosiyasi təsirləri

***Açar sözlər:*** *Yaxın Şərq, geosiyasət, İran, İsrail, beynəlxalq münasibətlər, regional təhlükəsizlik*
***Keywords:*** *Middle East, geopolitics, Iran, Israel, international relations, regional security*

Yaxın Şərq regionu tarix boyu siyasi və hərbi qarşıdurmaların baş verdiyi strateji məkanlardan biri olmuşdur. Regionun zəngin enerji ehtiyatları, mühüm nəqliyyat yolları və müxtəlif siyasi sistemlərin mövcudluğu burada geosiyasi rəqabəti daha da gücləndirir. Bu kontekstdə İran və İsrail arasında mövcud olan gərgin münasibətlər regionun siyasi balansının formalaşmasında mühüm rol oynayır (Arı, 2018).

1948-ci ildə İsrail dövlətinin yaradılması Yaxın Şərqdə yeni siyasi reallıq yaratdı. Bir sıra ərəb və müsəlman dövlətləri bu dövləti tanımadı və regionda uzunmüddətli siyasi gərginlik formalaşdı. İran isə müəyyən dövrdə İsraillə əməkdaşlıq münasibətləri saxlayan dövlətlərdən biri olmuşdur. Lakin 1979-cu ildə İranda baş verən Iranian Revolution nəticəsində ölkənin siyasi kursu dəyişmiş və İsrailə qarşı sərt mövqe formalaşmışdır (Cleveland, 2016).

İran–İsrail münasibətlərinin ilkin mərhələsi

İran və İsrail arasında münasibətlərin ilkin mərhələsi XX əsrin ortalarına təsadüf edir. Həmin dövrdə İran şahı Mohammad Reza Pahlavi Qərb yönümlü siyasət yürüdür və

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

regionda İsraillə əməkdaşlıq münasibətləri saxlayırdı. Bu əməkdaşlıq əsasən iqtisadi və təhlükəsizlik sahələrini əhatə edirdi (Gelvin, 2015).

İsrail üçün İran regionda mühüm strateji tərəfdaş hesab olunurdu. Həmin dövrdə İran İsraili qeyri-rəsmi şəkildə tanımış və iki ölkə arasında iqtisadi əlaqələr inkişaf etmişdir. Bu münasibətlər əsasən enerji ticarəti və təhlükəsizlik sahəsində əməkdaşlıqla xarakterizə olunurdu.

1979-cu il İran inqilabı və münasibətlərin dəyişməsi.

1979-cu ildə İranda baş verən siyasi inqilab iki dövlət arasındakı münasibətlərin dönüş nöqtəsi oldu. İnqilab nəticəsində ölkədə yeni siyasi sistem quruldu və dövlət ideologiyası dəyişdi. İnqilabın lideri Ruhollah Khomeini İsraili region üçün təhlükə hesab edir və bu dövlətə qarşı açıq siyasi mübarizə aparılacağını bəyan edirdi (Halliday, 2005).

İnqilabdan sonra İran İsraillə bütün diplomatik münasibətləri dayandırdı və İsrailə qarşı sərt siyasi mövqe tutdu. Bu dövrdən etibarən iki dövlət arasında münasibətlər düşmənçilik xarakteri aldı.

XXI əsrdə İran–İsrail qarşıdurmasının əsas səbəbləri.

XXI əsrdə İran və İsrail arasındakı qarşıdurma daha çox regional təsir uğrunda geosiyasi rəqabətlə əlaqələndirilir. İran Yaxın Şərq regionunda siyasi və hərbi təsir imkanlarını genişləndirməyə çalışır. İsrail isə bu siyasəti öz təhlükəsizliyi üçün ciddi risk hesab edir.

İsrail xüsusilə İranın nüvə proqramı ilə bağlı narahatlığını dəfələrlə beynəlxalq səviyyədə ifadə etmişdir. Bu məsələ ilə bağlı aparılan danışıqlar nəticəsində 2015-ci ildə Joint Comprehensive Plan of Action adlı beynəlxalq razılaşma imzalanmışdır. Bu razılaşma İranın nüvə fəaliyyətinə müəyyən məhdudiyyətlər qoyulmasını nəzərdə tuturdu (Həsənov, 2018).

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

Lakin sonrakı illərdə bu razılaşma ətrafında yaranan siyasi gərginliklər regionda yeni qarşıdurma risklərini artırmışdır (Əliyev, 2017).

Regiondakı hərbi və siyasi gərginliklər

Son illərdə Yaxın Şərq regionunda baş verən hadisələr İran və İsrail arasında gərginliyin daha da artmasına səbəb olmuşdur. Regionda müxtəlif silahlı qrupların fəaliyyəti və regional münaqişələr iki dövlət arasında dolayı qarşıdurma risklərini artırır (Məmmədov, 2020).

Xüsusilə Suriyada baş verən vətəndaş müharibəsi və regiondakı digər siyasi proseslər İranın regional təsir imkanlarını genişləndirmişdir. Bu isə İsrail tərəfindən təhlükə kimi qiymətləndirilir.

Qarşıdurmanın beynəlxalq münasibətlər sisteminə təsiri.

İran və İsrail arasında mövcud olan gərginlik yalnız regional deyil, qlobal siyasi proseslərə də təsir göstərir. Bu qarşıdurma böyük dövlətlərin regiondakı siyasətinə də ciddi təsir edir (Axundov, 2015).

Yaxın Şərqdə baş verən hərbi və siyasi hadisələr beynəlxalq enerji bazarlarına, ticarət əlaqələrinə və qlobal təhlükəsizlik sisteminə təsir göstərir. Xüsusilə regionda baş verən hərbi gərginliklər neft və qaz bazarında qiymət dəyişikliklərinə səbəb olur (Quliyev, 2016).

Eyni zamanda ABŞ, Rusiya və digər böyük dövlətlər regionda öz geosiyasi maraqlarını qorumaq üçün müxtəlif siyasi strategiyalar həyata keçirirlər.

Beləliklə, İran və İsrail arasında mövcud olan qarşıdurma tarixi, ideoloji və geosiyasi amillərin təsiri nəticəsində formalaşmışdır. 1979-cu ildə İranda baş verən inqilab bu münasibətlərin dəyişməsində əsas dönüş nöqtəsi olmuşdur (Richards, 2014).

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

Müasir dövrdə isə İran–İsrail qarşıdurması Yaxın Şərq regionunda siyasi və hərbi balansın formalaşmasında mühüm rol oynayır. Bu qarşıdurmanın gələcək inkişafı yalnız regional deyil, həm də qlobal təhlükəsizlik sisteminə təsir göstərmək potensialına malikdir (Axundov, 2015).

## Ədəbiyyat

1. Arı, T. (2018). *Uluslararası ilişkiler ve Orta Doğu.*
2. Axundov, S. (2015). *Dünya siyasəti tarixi.*
3. Cleveland, W. L. (2016). *A history of the modern Middle East.*
4. Əliyev, R. (2017). *Beynəlxalq münasibətlər nəzəriyyəsi.*
5. Gelvin, J. L. (2015). *The modern Middle East: A history.*
6. Halliday, F. (2005). *The Middle East in international relations.*
7. Həsənov, Ə. (2018). *Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti.*
8. Məmmədov, A. (2020). *Yaxın Şərqdə geosiyasi proseslər.*
9. Quliyev, F. (2016). *Beynəlxalq münasibətlər tarixi.*
10. Richards, A. (2014). *Political economy of the Middle East.*

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

**Sabir Əhmədov**
Bakı Dövlət Universiteti
doktorant
https://orcid.org/0009-0008-5261-4553
sabir.ahmadov@bsu.edu.az

# Tayvan tarixinin dövrləşməsinə dair

***Açar sözlər:*** *Tayvan, Çin, Tunnin krallığı, Çin sülaləsi, Quomindan*

***Keywords:*** *Taiwan, China, Kingdom of Tungning, Qing dynasty, Kuomintang*

Özünün geostrateji əhəmiyyətinə görə Böyük Britaniya və Yaponiya kimi güclü imperiyaların diqqətini cəlb etmiş Tayvanın tarixi bir neçə inkişaf mərhələsindən keçmişdir. Hazırda həm Çin Xalq Respublikasının (ÇXR), həm də Çin Respublikasının iddialarına baxmayaraq, Tayvan adası tarixən nə Çin, nə də etnik hanlar (çinlilər) ilə bağlı olmamışdır. Belə ki, adanın yerli əhalisi günümüzdə Okeaniya adalarında yaşayan Avstroneziya xalqları olmuşdur. Yalnız Çin sülaləsinin (Azərbaycan dilli mənbələrdə Tzin) işğalından sonra Tayvanın "çinləşməsi" prosesi başladı ki, bu da adanın etnik xəritəsini ciddi şəkildə dəyişdi.

**1. Qədim dövr (e.ə.12,000 il əvvəldən, eramızın XVII əsrinə kimi)**

Tayvan tarixinin ən qədim dövrü olmasına baxmayaraq, bu dövr o qədər də tədqiq edilməmiş və ona kifayət qədər diqqət ayrılmamışdır. Dövrün əsas xüsusiyyəti adada Avstroneziya xalqlarının dominantlıq etməsi olmuşdur. Buna baxmayaraq, bu xalqların mərkəzləşmiş bir dövləti olmamış və onlar bir-biri ilə müharibələr aparan qəbilə və tayfalar şəklində yaşamışdılar.

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

Qədim dövr Tayvan tarixinə dair əsas mənbələri arxeoloji abidələr təşkil edir. Bu cəhətdən Çanbin mədəniyyəti (e.ə.15,000 il əvvəldən, e.ə.5,000-ci ilə qədər) xüsusi qeyd edilə bilər. Adanın cənubunda yerləşən sahilyani mağaralarda aşkar edilən Çanbin mədəniyyətinin əsas xüsusiyyəti onun mənimsəmə təsərrüfatına əsaslanması olmuşdur. Belə ki, adanın ilk əhalisi yığıcılıq və ovçuluq ilə məşğul olmuş, daşdan primitiv əmək alətləri hazırlamışdılar. Bu dövrdə Tayvanda nə duluzçuluq, nə də kənd təsərrüfatı yox idi (müqayisə üçün eyni dövrdə kontinental Çində artıq hər iki sahə inkişaf etmişdir).

Yalnız e.ə.4,000-3,000-ci illərdə formalaşan Dapenken mədəniyyəti ilə Tayvanda Neolit inqilabı baş verir. Bu dövrdə ada əhalisi dulusçuluq, kənd təsərrüfatı və dənizçilik sahələrində bacarıqları mənimsədi. Ehtimal edilir ki, adada baş verən inkişaf Çindən gələn (Fucyen və Quandun əyalətindən) əhali axını ilə bağlı olmuşdur. Ümumilikdə isə ada əhalisinin həyat tərzi və inkişaf səviyyəsi eramızın XVII əsrinə qədər demək olar ki, dəyişməmişdir. Avropalıların Tayvana gəldiyi dövrdə yerli əhali hələ də parçalı şəkildə yaşamış, burada vahid dövlət, mərkəzləşmiş hökümət və ya kral institutu mövcud olmamışdır (Andrade, 2011).

**2. Niderland və İspaniyanın hakimiyyəti illəri (1624-1661/62)**

1624-cü ildə Kornelis Reijersenin rəhbərliyi altında Niderlanda məxsus gəmilər Tayvan sahillərində lövbər saldı. Tezliklə hollandlar adanın cənubunu nəzarətlərinə alır və burada "Nova Zeelandia" qalasının əsasını qoyurlar (müasir Taynan). Hollandların məqsədi Tayvanı özlərinin Çin, Yaponiya və Cənub-Şərqi Asiya ölkələri ilə ticarəti üçün dayaq nöqtəsinə çevirmək və regionda artmaqda davam edən portuqal və ispan nüfuzunu məhdudlaşdırmaq idi (Andrade, 2021). Məhz Tayvan vasitəsilə Yaponiya və digər Asiya ölkələrində istehsal edilən

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

şəkər, düyü və digər məhsullar Avropaya daşınırdı. Hollandların gəlişi ilə çinlilərin Tayvana marağı artır və adada ilk çinli məskənləri yaranır. Tayvana köçən çinlilərin əksəriyyəti Fucyen vilayətindən gəlmələr olmuş və onların hədəfi avropalılarla ticarət aparmaq olmuşdur. Hollandlar Tayvana gələn ilk avropalılar olmasa da, onlar adada daimi məskən salan ilk xaricilər idi.

Niderlandın adada öz nüfuzunu genişləndirməsi İspaniyanın Tayvana olan marağını artırdı. 1626-cı ildə ispanlar özlərinin Maniladakı müstəmləkəsini holland təsirindən qorumaq üçün Tayvanın şimalını (müasir Keelun və Tamsvey əraziləri) işğal edir və burada "Fort San Salvador" qalasının əsasını qoyurlar. Hollandlardan fərqli olaraq, ispanlar daha çox ticarətlə deyil, xristianlığın yerli xalqlar arasında təbliği ilə məşğul olmuşdular. Lakin iqtisadi cəhətdən sərfəli olmadığı üçün ispanların Tayvanda mövcudluğu qısamüddətli oldu və 1642-ci ildə onlar adanı tərk etdilər. Beləliklə, hollandlar dinc yolla Tayvanın şimalını da ələ keçirmiş oldular.

Hollandların Tayvanda hakimiyyətinin möhkəmləndiyi bir dövrdə kontinental Çində ciddi dəyişikliklər baş verdi, mancurlar hakimiyyəti ələ keçirərək Min sülaləsini cənuba qaçmağa məcbur etdilər. Bu zaman hollandlar Min loyalistlərindən biri olan Cen Çenqon (holland mənbələri onun adını Kohinqa olaraq qeyd edir) ilə əməkdaşlıq etməyə başladı. Buna baxmayaraq, tezliklə hollandların Çin (mancurlar) sülaləsini dəstəkləməsi səbəbindən Kohinqa onlara qarşı çıxır. 1661-1662-ci illərdə Kohinqa hollandlara məxsus olan "Nova Zeelandia" qalasını mühasirəyə alır. Doqquz ay davam edən mühasirədən sonra qala Kohinqanın nəzarəti altına keçir. Bununla adada hollandların hakimiyyətinə son qoyulur. Kohinqanın Tayvana hücum etməsinin iki əsas səbəbi olmuşdur: 1) onun Çin sülaləsinə (1644-1912) qarşı mübarizə aparmaq

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

üçün təhlükəsiz qərargaha ehtiyacının olması və 2) Tayvanın strateji əhəmiyyəti və adada artıq kifayət qədər çoxlu sayda çinlinin məskən salması.

**3. Tunnin krallığı (1661-1683)**

Hollandların qovulması ilə Tayvanda ilk dəfə mərkəzləşmiş dövlət yarandı. Tunnin krallığı kimi tanınan bu dövlətin başında Cen sülaləsi durmuşdur. Dövlətin əsasını qoyan Cen Çenqon 1662-ci ildə xəstəlik tutaraq vəfat edir. Bundan sonra hakimiyyətə onun oğlu Cen Cin gəlir ki, o, 1682-ci ilə kimi krallığı idarə etmişdir. Paytaxtı Taynan olan Tunnin krallığı qısa müddət ərzində Min sülaləsi tərəfdarlarının əsas mərkəzinə çevrildi. Çin sülaləsi və Mancur işğalına qarşı olan Cen ailəsi kontinental Çindəki anti-Mancur hərəkatı dəstəkləməyə başladı. Bu cəhətdən 1673-1681-ci illərdə baş vermiş "üç feodallıq" üsyanı xüsusi qeyd edilə bilər. Tunnin krallığının mövcud olduğu illərdə Tayvana etnik çinlilərin axını artır, adanın Yaponiya və Cənub-Şərqi Asiya ölkələri ilə ticarəti isə daha da genişlənir. 1683-cü ildə mancurlar Tayvan adasını işğal etmək üçün admiral Şi Lan başda olmaqla dəniz qoşunu göndərirlər. Penhu adası yaxınlığındakı döyüşdə qalib gələn mancurlar Tayvanı işğal edir və onun əraziləri Fucyen vilayətinin tərkibinə daxil edilir.

**4. Çin sülaləsi hakimiyyəti illəri (1683-1895)**

Çin sülaləsinin işğalı illərində Tayvana etnik çinlilərin axını daha da artır. Buna baxmayaraq, Mancur rəhbərliyi uzun illər adaya kifayət qədər əhəmiyyət verməmiş və onu təcrid edilmiş şəkildə saxlamışdıe. Buna səbəb mancurların Tayvan adasını "üsyançılar üçün sığınacaq" olaraq görmələri olmuşdur. Çin sülaləsinin kontinental Çindən Tayvana miqrasiyanı məhdudlaşdırmaq cəhdlərinə baxmayaraq, Fucyen və Quandun vilayətlərindən olan kişi əhalisinin Tayvana axını davam etdi.

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

Yerli əhali isə çinlilərlə qaynayıb-qarışaraq assimilyasiyaya məruz qaldı.

XVIII-XIX əsrlərdə Tayvanın iqtisadiyyatı inkişaf etməyə və əhalisi sürətlə artmağa başladı. Belə ki, ada əhalisi 1684-cü ildə təqribən 100 min nəfərdən, 1893-cü ildə 2.5 milyon nəfərə artır (Alsford, 2018). Əhalinin əksəriyyəti etnik çinlilər idi. Bu dövrdə Tayvanda Taynan, Taypey və Koahsyoun kimi iri şəhərlər mövcud idi. Çinin "Tiryək müharibələri" nəticəsində "açılması" ilə Tayvanda avropalıların mülkləri artmağa başladı. Adaya xüsusi maraq göstərən ingilislər Taypeyin yaxınlığındakı Dadaoçendə məskən saldılar. Qərb dövlətləri Tayvanın gələcəkdə özlərinin Asiyadakı nüfuzları üçün mühüm rol oynayacağını anladıqları halda, Çin höküməti adaya biganə olaraq yanaşmağı davam edirdi. Yalnız Çin-Fransa müharibəsi dövründə fransızların Tayvana hücum etməsindən sonra, 1885-ci ildə ada Fucyen vilayətinin tərkibindən çıxarılır və ölkənin 20-ci vilayəti olaraq müstəqil vilayət statusu almış olur. Bu Tayvanda Çin sülaləsi hakimiyyətinin qısamüddətli "qızıl dövrü" oldu. Belə ki, bu dövrdə qubernator Lyou Minçuanın rəhbərliyi altında adada ilk dəfə dəmir yollarının modernizasiyası, teleqraf xəttlərinin çəkilişi, poçt məntəqələrinin və qərb tipli müasir məktəblərin tikintisi həyata keçirilir. 1895-ci il Şimonoseki müqaviləsi ilə Tayvan Çinin tərkibindən çıxarılmış oldu.

**5. Yaponiya işğalı illəri (1895-1945)**

Birinci Çin-Yaponiya müharibəsinin nəticəsində imzalanan Şimonoseki müqaviləsinə uyğun olaraq Tayvan Yaponiyanın ilk müstəmləkəsinə çevrilir. Yapon işğalı illərində adada yaponlaşma siyasəti həyata keçirilir. Tayvanda hərbi rejim quran yaponlar bütün hakim vəzifələrə etnik yaponları təyin edir. Çinlilərin siyasətdə fəaliyyətinə qoyulan məhdudiyyətlərə baxmayaraq, Yaponiya işğalı illərində Tayvanda iqtisadiyyat inkişaf etməyə başladı. Belə ki, imperiyanın tələbatlarını

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

ödəmək üçün adanın sənayesi modernləşdirildi, yeni dəmir yolları, limanlar, yollar və teleqraf xəttləri çəkilməyə başlandı.

Ada əhalisini yaponlaşdırmaq və assimilyasiya etmək üçün Yaponiya höküməti Tayvanda "doka" (tərc.: assimilyasiya) siyasətini apardı. Doka siyasəti çərçivəsində adada olan bütün məktəblərdə məcburi şəkildə yapon dili və mədəniyyəti tədris edilir, əhali arasında Şintoizm dini təbliğ edilirdi. Yaponlaşma siyasətinin növbəti mərhələsi 1937-1945-ci illərdə həyata keçirilən "kominka" (yaponlara məxsus milli ev üslubu) siyasəti oldu. Bu siyasətin məqsədi Tayvan əhalisinin imperiyaya sədaqətini artırmaq idi. İşğal dövründə aparılan təbliğat o qədər uğurlu olmuşdur ki, İkinci Dünya müharibəsi illərində Tayvan əhalisinin əksəriyyəti Yaponiyanı dəstəkləmiş və hətta Çinə qarşı hərbi əməliyyatlarda iştirak etmişdir. Özlərinin imperatorun sadiq təəbələri olduqlarını sübut etmək üçün Tayvan çinliləri adlarını Çin mənşəli adlardan yapon mənşəli adlara dəyişirdilər. Buna baxmayaraq, ada əhalisi arasında yaponların hakimiyyətinə qarşı olanlar da var idi. Bunlardan Lin Syentan xüsusi qeyd edilə bilər.

İkinci Dünya müharibəsinin sonlarına yaxın Tayvanın Çinə qaytarılması məsələsi müzakirə edilməyə başlandı. 1943-cü ildə imzalanan Qahirə bəyannaməsinə görə Tayvan müharibənin bitməsindən dərhal sonra Çin Respublikasının tərkibinə daxil edilməli idi. Qahirə bəyannaməsinin mətni 1945-ci ildə imzalanan Potsdam razılaşmasının 8-ci maddəsinə ilə bir daha təsdiq edildi.

**6. Quomindanın Tayvana gəlişi (1947-...)**

1945-ci ilin avqustun 15-də Yaponiyanın təslim olması ilə İkinci Çin-Yaponiya müharibəsi başa çatdı. Dərhal sonra yaponların işğal edilmiş ərazilərdən çıxarılması prosesi başladı. 1945-ci ilin oktyabrın 25-də yaponlar 50 illik işğaldan sonra Tayvanı tərk etdilər. Bununla Tayvan Çin Respublikası

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

hakimiyyəti altına keçdi. Çində vətəndaş müharibəsinin başlaması ilə Quomindan rəhbərliyi və Çin Respublikasının qalıqları 1947-ci ildə kontinental Çini tərk edərək Tayvana qaçmağa məcbur qaldı. Çin Respublikasının adaya sığınması nəticəsində isə Tayvan problemi meydana çıxdı.

## Ədəbiyyat

1. Alsford, (2018). *Transition to modernity in Taiwan*. Taylor & Francis Group.
2. Andrade, R. (2011). *Lost colony*. Princeton University Press.
3. Andrade, R. (2021). *The last embassy: The Dutch mission of 1795 and the forgotten history of Western encounters with China*. Princeton University Press.

Tarix elmlərində müasir tələblər və tədqiqatlar I Beynəlxalq Elmi Konfrans / 15 aprel 2026 / 37-44
Modern Requirements And Research In Historical Sciences I International Scientific Conference / 15 april 2026 / 37-44
https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

**Nəsrin Mehdiyeva**
Bakı Dövlət Universiteti
https://orcid.org/0009-0005-6824-1307
nesrin.abdullayeva99@mail.ru

# Cənubi Qafqazda sovet milli-dövlət quruculuğu və etnoərazi ziddiyyətlərinin formalaşması

***Açar sözlər:*** *Cənubi Qafqaz, sovet milli siyasəti, milli-dövlət quruculuğu, ərazi-sərhəd məsələləri, inzibati-ərazi bölgüsü, etnoərazi ziddiyyətləri, milli muxtariyyətlər*

***Keywords:*** *South Caucasus, Soviet national policy, nation-state building, territorial and border issues, administrative-territorial division, ethno-territorial conflicts, national autonomies*

XX əsrin əvvəllərində baş verən siyasi transformasiyalar Cənubi Qafqaz regionunun inzibati-ərazi quruluşuna və etno-siyasi dinamikasına köklü təsir göstərmişdir. Xüsusilə 1920–1922-ci illərdə sovet hakimiyyətinin regionda bərqərar olması ilə milli-dövlət quruculuğu prosesi yeni mərhələyə qədəm qoymuş, bu proses çərçivəsində ərazi-sərhəd məsələləri mühüm siyasi və ideoloji alətə çevrilmişdir. 1922-ci ildə SSRİ-nin yaradılması ilə sovet məkanında milli-ərazi qurumlarının iyerarxik sistemi formalaşmış və bu model Cənubi Qafqazda sərhədlərin müəyyənləşdirilməsinə birbaşa təsir etmişdir.

Cənubi Qafqazda sovet dövründə həyata keçirilən inzibati dəyişikliklər və muxtariyyətlərin yaradılması, bir tərəfdən regionda siyasi sabitliyin təmin edilməsinə xidmət etsə də, digər tərəfdən etnoərazi ziddiyyətlərinin institusionallaşdırılmasına gətirib çıxarmışdır. Xüsusilə Dağlıq Qarabağ, Naxçıvan, Abxaziya və Cənubi Osetiya kimi ərazilərdə tətbiq olunan

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

müxtəlif status modelləri gələcək dövrdə münaqişələrin formalaşmasında mühüm rol oynamışdır.

1921-ci ilin payızına qədər bütün Qafqaz regionu sovet milli-dövlət quruculuğu sahəsinə daxil edilir. Bu cür quruculuq, əhalinin və ərazilərin təşkili ilə bağlı özünəməxsus meyarları ilə boş məkanda deyil, mövcud zəmin üzərində inkişaf edir. Regionun yeni kompozisiyası — sosial-siyasi problemlərlə zəngin, tarixi baxımdan formalaşmış insan landşaftında sovet layihəsinin dinamik və ziddiyyətli təcəssümüdür. Aydındır ki, Qafqazın sovet qaydasında nizama salınması "harmonik və ziddiyyətsiz" adlandırıla bilməz: bu tarixi layihə daxilində çoxsaylı rəqabətli maraqlar və lokal problemlər əridilib uyğunlaşdırılmalı idi; layihənin özü isə müxtəlif siyasi ideologemlər və idarəetmə prinsiplərindən toxunmuşdu. Həmçinin əhəmiyyətlidir ki, bolşevik partiyasının özündə avtoritar meyillərin artması ilə strateji qərarların qəbulu getdikcə bolşevik/sovet rəhbərliyinin dar çevrəsində aparılan qapalı müzakirələrdə cəmlənir və bir neçə nüfuzlu fiqurun siyasi baxışından asılı vəziyyətə düşürdü.

Zaqafqaziyada milli kateqoriyaların institusionallaşdırılması prosesi etnik elitaların səyləri nəticəsində beynəlxalq səviyyədə tanınmış dövlətlər mərhələsinə qədər çatdırılmışdı. Bolşeviklər bu institusional formanı tam ləğv etmədilər, lakin onun simvolik əhəmiyyətindən istifadə etdilər. Yeni hakimiyyət artıq Vətəndaş müharibəsi dövründə xeyli siyasiləşmiş mövcud milli həmrəylikləri öz sosial-messianik çağırışları üçün auditoriya kimi istifadə edirdi: "inqilab xalqlara azadlıq gətirir". Sosial azadlığın milli azadlıq kimi gözlənildiyi yerlərdə bolşeviklər bu gözləntini əsaslandırırdılar. Sovet hakimiyyəti belə azadlıq-öz müqəddəratını təyinetmə formasını geniş kütləvi sosial meyllərin əvvəlcədən hazırlanmış konturları üzrə təşkil edirdi. Öz növbəsində, yeni hakimiyyət "milli rayonlarda" sabit sosial

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

və kadr bazasının yaradılmasına ehtiyac duyurdu. Bu öz müqəddəratını təyinetmənin ərazi və status xüsusiyyətlərində regionda Lenin partiyasının/sovet dövlətinin əsas iki vəzifəsi — sovet hakimiyyətinin möhkəmləndirilməsi və köklü sosial dəyişikliklərin həyata keçirilməsi — təcəssüm olunmuşdu.

1920–1921-ci illərdə Qafqaz milli respublikalarının və muxtariyyətlərinin ilk sovet tərkibi formalaşır. Kollektiv öz müqəddəratını təyinetmə formaları kimi onlar eyni zamanda müvafiq milli qrupların "kollektiv mülkiyyətinin" obyektləri kimi də çıxış edirlər. Şimali Qafqazda yeni hakimiyyət üçün kollektiv tarixi subyektivliyi əks etdirən ən aydın kateqoriya dağlılar idi. 1920-ci ilin noyabrında Vladiqafqazda Terek xalqlarının qurultayında və Temir-Xan-Şurada Dağıstan xalqlarının qurultayında RSFSR tərkibində iki dağlı sovet respublikasının yaradılması elan olunur. Keçmiş Terek vilayətinin dağlı dairələri əsasında Dağlı Sovet Respublikası, Dağıstan vilayəti əsasında isə Dağıstan Sovet Respublikası yaranır (RSFSR ÜMİK-nin 20 yanvar 1921-ci il tarixli qərarı ilə qanuniləşdirilmişdir) (Tsutsiev, 2007, s. 62).

1918–1921-ci illərdə Gürcüstan Demokratik Respublikasının dövlət ərazisinin formalaşması Zaqafqaziyanın milli-dövlət bölgüsü prosesinin tərkib hissəsi olmuşdur. Gürcü siyasi elitası sərhədlərin müəyyənləşdirilməsində əsasən "tarixi ərazilər" meyarına üstünlük vermiş, "etnik məskunlaşma" prinsipini isə ikinci dərəcəli amil kimi nəzərdən keçirmişdir. Lakin bu yanaşma bir sıra çətinliklər doğururdu. Çünki iddia edilən bəzi periferik ərazilərdə gürcü əhalisi ya azlıq təşkil edir, ya da milli identiklik baxımından tam konsolidasiya olunmamış vəziyyətdə idi. Bu xüsusilə Acarıstan və Mesxetiya bölgələrində özünü göstərirdi. Yeni dövlətin legitimlik problemi yaşadığı şəraitdə əhalinin etnik tərkibi və azlıqlara münasibət daxili sabitliyin mühüm amilinə çevrilmişdir. Gürcüstan hökuməti

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

"müsəlman Gürcüstanı", Borçalı, Abxaziya, Zaqatala dairəsi və Cənubi Osetiya kimi bölgələrdə nəzarətin təmin edilməsi və dövlət suverenliyinin möhkəmləndirilməsi istiqamətində siyasət həyata keçirmişdir. 1918-ci ilin sonunda Antantanın qələbəsi və Osmanlı qoşunlarının regiondan çıxarılması Gürcüstana Batum müqaviləsi ilə itirilmiş bəzi əraziləri — Mesxetiya və Qars vilayətinin şimal hissəsini — yenidən inteqrasiya etməyə imkan vermişdir. Bununla yanaşı, Batum dairəsi müvəqqəti olaraq Britaniya nəzarətinə keçmişdir. 1919-cu ildə Borçalı və Cavaxetiya bölgələri uğrunda Gürcüstan ilə Ermənistan arasında baş vermiş hərbi qarşıdurma Antantanın vasitəçiliyi ilə dayandırılmışdır. Nəticədə Cavaxetiya Gürcüstanın tərkibində qalmış, Borçalı isə müxtəlif inzibati zonalara bölünmüşdür. Abxaziya məsələsində Gürcüstan muxtariyyət vəd etməklə nəzarəti qorumağa çalışmışdır. 1920-ci ildə Cənubi Osetiyada baş verən üsyan isə sosial müstəvidən milli qarşıdurma mərhələsinə keçmiş və hökumət qüvvələri tərəfindən yatırılmışdır.

Gürcüstanın xarici siyasətində neytrallıq xətti, xüsusilə erməni-azərbaycan münaqişələrində birbaşa iştirakdan çəkinməsi və eyni zamanda Türkiyə və Sovet Rusiyası ilə münasibətlərin tənzimlənməsi müəyyən sabitlik görüntüsü yaratmışdır. Lakin 1920-ci ildə Azərbaycan və Ermənistanın sovetləşdirilməsi regionun ümumi siyasi istiqamətini müəyyən etmişdir. 1921-ci ilin fevralında baş vermiş hadisələr nəticəsində Qırmızı Ordu Gürcüstana daxil olmuş və 25 fevral 1921-ci ildə Gürcüstan Sovet Respublikası elan edilmişdir.

1921-ci ilin fevralına qədər Gürcüstan Azərbaycan və Ermənistandan fərqli olaraq genişmiqyaslı xarici hərbi məğlubiyyətlər yaşamamışdı. Sovetləşmə ərəfəsində Gürcüstanın dövlət ərazisinin tərkibi və sərhədləri daha müəyyən və sabit xarakter daşıyırdı. Mübahisəli hesab edilən bəzi bölgələr faktiki

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

olaraq nəzarət altında saxlanılır, digərlərinin statusu isə beynəlxalq razılaşdırma mexanizmlərinə çıxarılmışdı. 7 may 1920-ci il sovet-gürcü müqaviləsi ilə şimal sərhədi rəsmiləşdirilmiş və müəyyən sabitlik əldə edilmişdi. Lakin 1921–1923-cü illərdə həyata keçirilən inzibati dəyişikliklər Gürcüstan ərazisinin konsolidasiyası prosesinin tam başa çatmadığını göstərirdi. Lori zonası əvvəlcə Gürcüstanın tərkibində saxlanılmış, lakin 1922–1923-cü illərdə etnik meyar əsas götürülərək Ermənistan Respublikasına verilmişdir. Eyni zamanda Borçalı bölgəsi Gürcüstanın tərkibində qalmış, Zaqatala dairəsi isə etnik meyar nəzərə alınaraq Azərbaycanın tərkibinə daxil edilmişdir.

Abxaziyada sovetləşmə prosesində əvvəlcə ayrıca respublika forması yaradılmış, daha sonra bu qurum mərhələli şəkildə Gürcüstan SSR-in tərkibinə inteqrasiya edilmişdir. 1921-ci ilin dekabrından etibarən Abxaziyanın statusu müqavilə əsasında müəyyən edilmiş sovet respublikası kimi rəsmiləşdirilmişdir (Kazenin, 2007, s. 15). Cənubi Osetiyada isə sovetləşmə muxtariyyətin təmin olunması ilə müşayiət olunmuş, 1921–1922-ci illərdə onun inzibati statusu və sərhədləri müəyyən edilmişdir.

1921-ci il sovet-türk müqavilələri nəticəsində "müsəlman Gürcüstanı" adlandırılan ərazi iki hissəyə bölünmüşdür. Şimali Acarıstan (Batumla birlikdə) və Mesxet-Cavaxetiya Gürcüstanın tərkibində saxlanılmış, Artvin, Oltu və Ardahan dairələri isə Türkiyəyə verilmişdir. Eyni zamanda Acarıstan Gürcüstan SSR-in tərkibində muxtar status almışdır. Bu qərarlar həm geosiyasi, həm də regional xüsusiyyətlər nəzərə alınmaqla qəbul edilmişdir (Tsutsiev, 2007, s. 60).

Beləliklə, Gürcüstanın sovetləşdirilməsi Zaqafqaziyada sovet hakimiyyətinin bərqərar olması prosesini tamamlamışdır. Xarici sərhədlər sovet-türk razılaşmaları çərçivəsində müəyyən

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

edilmiş, daxili inzibati dəyişikliklər və muxtariyyətlərin yaradılması isə ərazi konsolidasiyası və siyasi sabitliyin təmin olunması məqsədinə xidmət etmişdir.

1919-cu ilin yayında və 1920-ci ilin martından etibarən Ermənistan Naxçıvan və Qarabağ istiqamətində Azərbaycana təcavüz siyasəti həyata keçirmiş, regionun bir sıra ərazilərində nəzarəti ələ keçirməyə cəhd göstərmişdir. Sürməli, Şərur və Zəngəzur kimi Azərbaycanla tarixi-coğrafi bağlılığı olan ərazilərə iddialar irəli sürürdülər (Mustafayeva, 2017, s. 154). Erməni-azərbaycanlı ərazi ziddiyyətlərinin bir hissəsi sovet-türk münasibətləri çərçivəsində, xüsusilə Naxçıvan məsələsində həllini tapmışdır. Naxçıvanın Sovet Azərbaycanının himayəsi altında muxtar ərazi kimi təşkili onun Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunmasına xidmət etmişdir (ARDA, f.28 s., siy.l, iş 58, s. 143-145). Eyni zamanda Sürməli qəzasının Türkiyəyə verilməsi regionda geosiyasi balansın formalaşdırılması ilə bağlı olmuşdur. Bununla yanaşı, Zəngəzurun taleyi 1921-ci ildə sovet rəhbərliyinin səhv qərarı nəticəsində müəyyən edilmiş və bu ərazi Ermənistan SSR-in tərkibinə daxil edilmişdir ki, bu da regionda gələcək ərazi ziddiyyətlərinin əsasını qoyan amillərdən biri olmuşdur (Dokumenty vneshney politiki SSSR (Vol. 2), 1958, s. 728).

1921-ci ildə Dağlıq Qarabağın statusu məsələsi müzakirə olunarkən bolşevik rəhbərliyi regionun geosiyasi reallıqlarını və Azərbaycanla iqtisadi, coğrafi və tarixi bağlılığını nəzərə alaraq bu ərazinin Azərbaycanın tərkibində saxlanılması barədə qərar qəbul etmişdir. Qafqaz Bürosunun qərarı nəticəsində Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi müəyyən edilmiş və bu, həm regionun iqtisadi inteqrasiyası, həm də tarixi reallıqlarla uyğunluq baxımından əsaslandırılmışdır.

1920–1923-cü illərdə sovet idarəetmə modeli çərçivəsində erməni-azərbaycanlı münasibətlərinin tənzimlənməsi məqsədilə

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

müxtəlif inzibati həllər tətbiq olunsa da, bu qərarlar bir çox hallarda siyasi xarakter daşıyırdı. Dağlıq Qarabağ məsələsində qəbul edilmiş model formal olaraq muxtariyyət prinsiplərinə əsaslansa da, əslində Azərbaycanın ərazi bütövlüyünə təhlükə olaraq yaradılmışdı.

1922-ci ilin dekabrında SSRİ yaradıldıqdan sonra Sovet milli-dövlət quruculuğunun paradiqması isə bir qədər sonra formalaşır; bu zaman proletar inqilabının ixracı ideyası yerini proletar vətəninin möhkəmləndirilməsi ideya və praktikasına verir və sovet məkanında milli-ərazi qurumlarının iyerarxiyası yaranır.

Regionun inzibati-ərazi yenidən təşkili sovet milli-dövlət quruculuğunun elementlərindən biridir. Bu "quruculuq" prosesində sovet ideologemlərinin, hərbi-siyasi və təsərrüfat-iqtisadi strategiyaların kompleksi həyata keçirilir. Bu proses əvvəlcədən hazırlanmış, ərazinin dəqiq strukturuna və daxili sərhədlərin aydın konturlarına malik planı nəzərdə tutmurdu. Regionun təşkilində əvvəldən müxtəlif iqtisadi rayonlaşdırma prinsipləri, yerli qrup maraqları, siyasi-ideoloji və təsərrüfat-iqtisadi prioritetlər toqquşurdu. İnzibati kompozisiyaya davamlı düzəlişlər edilirdi, qəbul edilmiş institusional qərarlar yenidən nəzərdən keçirilirdi. Lakin ümumilikdə bu dövrdə iki əsas strategiya həyata keçirilmişdir: sovet etnik muxtariyyətləri formalaşdırılır (öz müqəddəratını təyinetmə və ya idarəetmə/ərazi üzrə etnik spesifikasiya ideologiyası tədricən "ittifaq respublikalarından" başlayaraq "milli kənd sovetləri və kolxozlara" qədər genişlənir); dövlətin əsas inzibati vahidləri yenidən təşkil olunur (bu isə ölkənin iqtisadi infrastrukturunun inkişaf prioritetləri ilə şərtlənirdi).

Ümumilikdə, sovet dövründə Cənubi Qafqazda aparılan inzibati-ərazi siyasəti regionda etno-siyasi münasibətlərin formalaşmasına mühüm təsir göstərmiş, bir tərəfdən müəyyən

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

sabitlik yaratmağa xidmət etsə də, digər tərəfdən gələcək münaqişələrin struktur əsaslarını formalaşdırmışdır. Bu dövrdə həyata keçirilən ərazi bölgüsü və milli muxtariyyətlərin yaradılması formal olaraq xalqların öz müqəddəratını təyinetmə prinsipi ilə əsaslandırılsa da, faktiki olaraq sovet rəhbərliyinin siyasi, geosiyasi və iqtisadi maraqları ilə şərtlənmişdir. Bu baxımdan, müasir dövrdə regionda mövcud olan ərazi və etno-siyasi problemlərin mahiyyətini anlamaq üçün sovet dövründə qəbul olunmuş qərarların tarixi təhlili xüsusi əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. Kazenin, K. I. (Ed.). (2007). *Gruzino-abkhazskiy konflikt: 1917–1992. Sbornik* (Yevrovostok). Izdatel'stvo "Yevropa".
2. Mustafayeva, S. O. (2017). *Izmeneniya granits i territoriy na Yuzhnom Kavkaze (1917–1922 gg.)*. Yevropa.
3. *Dogovor mezhdu pravitel'stvami RSFSR i Turtsii o druzhbe i granitsakh* (1921, March 16). ARDA, f.28 s., siy.1, iş 58, s. 143–145.
4. *Dokumenty vneshney politiki SSSR* (Vol. 2). (1958). Politizdat.
5. Tsutsiev, A. A. (2007). *Atlas etnopoliticheskoy istorii Kavkaza (1774–2004)*. Yevropa.

Tarix elmlərində müasir tələblər və tədqiqatlar I Beynəlxalq Elmi Konfrans / 15 aprel 2026 / 45-52
Modern Requirements And Research In Historical Sciences I International Scientific Conference / 15 april 2026 / 45-52
https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

**Yaqut Tağıyeva**
Azərbaycan, Şəmkir
https://orcid.org/0009-0000-1035-0459
yaquttagiyeva6@gmail.com

# Yurdumun qədim tarixdən bu günə uzanan sarsılmaz addımları

***Açar sözlər:*** *qədim dövr, erkən dövr, feodal, islahat, intibah*
***Keywords:*** *ancient period, early period, feudalism, reform, renaissance*

Azərbaycan xalqı çox zəngin tarixə malikdir və dünyanın mədəni xalqları içərisində öz qədimliy ilə seçilir. Tarix hər bi xalqın, o cümlədən Azərbaycan xalqının da milli özünüdərketmənin əsas sütünlarından birini təşkil edir. Bəşəriyyətin, eləcə də ayrı-ayrı xalqların həyatında qədim zamanlardan bu günə qədər baş vermiş ən mühüm hadisələri öyrənən tarix elimidir.

Azərbaycan ölkəsinin tarixi ərazisi Cənubi Qafqazın Şərq və Cənub-Şərq hissəsini və indiki İran dövlətinin şimal-qərbini əhatə edir. Ümumi sahəsi 410 min kv/km, əhalisinin sayı 60 mlndan artıq olan bu ölkənin şimal hüdudları Dərbəndə, cənub hüdudları isə Həmədana qədər uzanır. Şərqdə xəzər dənizi və Qazvin şəhəri, qərbdə isə indiki Türkiyə ilə həmsərhəddir. Hazırda bu tarixi ərazinin yalnız 86,8 min kv/km hissəsində müstəqil Azərbaycan Respublikası fəaliyyət göstərir ki, onun da əhalisinin sayı artıq 9,8 mlnu ötmüşdür. Azərbaycan torpaqlarının yerdə qalan böyük bir hissəsi Cənubi Azərbaycan – indiki İran Respublikasının tərkibindədir. İraqın şimalında Kərkük və Türkiyənin şərqində bir neçə vilayət də tarixən Azərbaycan türklənin yaşadığı ərazilərdir. Araz çayı isə

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

Azərbaycan ərazisini iki hissəyə bölür. Əlverişli təbii coğrafi şəraitə, zəngin flora və faunaya, mülayim iqlim şəraitinə malik olan Azərbaycan yer kürəsində kbtidai insanın formalaşdığı ərazilər sıraaına daxildir. Aparılmış tədqiqatlar nəticəsində məlum olmuşdur ki, hələ neçə mln illər əvvəl Azərbaycan ərazisində ən qədim insanlar yaşamışlar. Ona görə də Azərbaycan "qədim insan" məskənlərinin olduğu ərazidir. Ölkənin hər tərəfinə insanların bu məskunlaşma məekəzlərindən yayıldığı güman olunur. Buna tədricən əhalinin sayının və yaşayış məntəqələrinin aertması səbəb olmuşdur. Arxeoloqlar Azərbaycan ərazisində Qarabağda (Azıx,Tağlar,Zar), Naxçıvanda (Qazma), Qazax (Damcılı), Lerikdə (Buzeyr) qədim insanların yaşadığını öyrənmişlər. Bunlardan Qarabağda Fizuli şəhərindən 17 km şimal-şərqdə Quluçay dərəsinin sol sahilində yerləşən Azıx mağarası alt paleolit dövrünə aiddir. Quluçay dərəsində ilk vaxtlar açıq düşərgələrdə yaşayan qədim insanlar iqlim şəraitinin dəyişməsi ilə əlaqədar yaxınlıqdakı Azıx mağarasına köçmüşlər. Mağaranın ən qədim dövrə aid olan təbəqələrində ibtidai insanların işlətdikləri kobud daş alətləri tapılmışdır ki, bunlar da adi çay daşlarından hazırlanmışdır. İbtidai insanlar bu alətlərdən ov ovlamaq, ovladıqları heyvanları kəsmək və doğramaq üçün istifadə etmişlər. 1000 illər keçdikcə ibtidai insanlar fiziki və əqli cəhətdən xeyli inkişaf etmişlər, bunun nəticəsində də əmək alətləri təkmilləşmişdir.

İbtidai insanlar kiçik quruplar, dəstələr halında yaşayırdılar. Belə kiçik kollektivlər insan "sürüsü" və ya "ulu icma" adlanırdı. Ulu icma kortəbii şəkildə və təbiət hadisələri qarşısında aciz qamamaq məcburiyyətindən yaranmışdır, ona görə də onlar tez-tez dağılaraq sonra yeniləri yaranırdı. Ulu icma ibtidai icma quruluşunun ilk pilləsində meydana gəlmiş və qəbilə icması formalaşanadək davam etmişdir. Bu qədim insanların oddan istifadə etməsi onların həyatında çox mühim

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

hadisə olmuşdur. İlk vaxtlar ildırım çaxması və ya üzvi maddələrin "öz-özünə" yanması nəticəsində əmələ gəlmiş təbii oddan istifadə etmişlər. Sonralar isə odu quru ağac parçalarını, çaxmaq daşını bir-birinə vurmaqla əldə etmişlər. Od, ocaq insanların həyatında böyük rol oynamışdır. Çünki insanlar ocaqdan həm də isinmək, yemək bişirmək və vəhşi heyvanlardan qorunmaq üçün də istifadə etmişlər.

1968-ci ildə Azıx mağarasında ibtidai insana məxsus alt çənə sümüyü tapılmışdır ki, bu da dünyanın ən qədim belə tapıntılarından biridir. Bu insan "azıxantrop" adlandırılmışdır və bu tapıntı Azərbaycanın qədim insanların formalaşdığı ərazilərdən biri olduğunu sübut edir. Zaman keçdikcə Azıx adamları tədricən ətraf mühiti dərk etmiş, onlarda ibtidai dini təsəvvürlər yaranmış və onlar sadə incəsənətlə də məşğul olmuşlar. Orta poleolit dövründən başlayaraq ulu icma sıradan çıxaraq qəbilə icması yaranmağa başlamışdır. Bu dövrdə insanların istər ətraf mühitə münasibətində, istərsədə dini görüşlərində dəyişikliklər yaranmışdır. Həm dini təsəvvürlər həm təbiət hadisələrinə inam, ovsun və s. bu dövrdə olmuşdur. Qədim insanlığın son mərhələsi olan üst poleolit dövrü isə e.ə xıı minilliyə qədər davam etmişdir. Bu dövrdə isə ümumiyyətlə iqlimin mülayimləşməsi, bitki və heyvanat aləmində, ictimai həyatda da bir çox dəyişikliklər baş vermişdir. Abidələrdən tapılmış quraşdırma oraq dişləri, dən daşı və sürtgəclər, daş toxalar artıq bu dövrdə əkinçiliyində intensiv xarakter daşıdığını göstərir. İctimai icma cəmiyyətində yeni yaranan əsas təsərrüfat sahələrindən biri də maldarlıq olmuşdur. Yaşayış yerlərinin topoqrafiasına əsasən söyləmək olur ki, yarımköçəri yaylaq maldarlığı Azərbaycanda Kür-Araz mədəniyyətinin orta inkişaf mərhələsində mövcud olmuşdur. Bu dövrün e.ə ıv və ııı minilliklərə düşdüyü ehtimal olunur. Neolit və eneolit dövründə meydana çıxan ibtidai sənətkatlıq Tunc dövründə inkişaf edərək

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

daha da təkmilləşdi. Arxeoloji qazıntılardanəldə edilən müxtəlif əmək alətləri, təsərrüfat əşyaları o dövrdə sənətkarlığın müxtəlif qollarının dulusçuluq, dər və gönişləmə, toxuculuq və s. kimi müxtəlif mərhələlərdə inkişaf etdiyini göstərir. Bu dövrdə də incəsənət yüksək inkişaf tapmışdır. Məişət əşyaları həndəsi naxışlar, bəzək əşyaları, insan, heyvan və quş rəsimləri ilə bəzədilirdi. Bu dövrə aid qayaüstü rəsimlər (Qobustan) təsviri incəsənətin ən gözəl nümunələridir. Daha sonralar artıq insanlar arasında varlı və kasıb təbəqələr formalaşmışdır. Eyni zamanda tapılmış müxtəlif silah, nizə, ox ucluqları, xəncər, qılınc, balta, zireh, toppuz və s. həmin dövrdə hərbi döyüşlərin olduğunu da göstərir. Əhali qəfil hücumlardan qorunmaq üçün daha təhlükəsiz yerlərdə məskunlaşırdılar. Belə yaşayış məskəninin ətrafına möhkəm müdafiə divarı çəkilir, dağlıq yerlərdə isə qalaçalar və müvəqqəti sığınacaqlar tikilirdi. Bəzi yaşayış məskənləri tayfalar arasında gedən münaqişlər zamanı yandırılırdı, qalib tayfa məğlub tayfanı öz tərkibinə qatır və onun var-dövlətini mənimsəyirdi. Bu dövrdə sahibkarların qulları ancaq onlara tabe olurdular.

VI-XVI əsrlərdə Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Eldənizlər, Elxanilər, Baharlı, Bayandurlu və Səfəvi dövlətləri xalqımızın tarixində müstəsna rol oynadılar. Vl əsrdə Azərbayacanda feodal münasibətləri inkişaf edirdi. Kənd icmalarının torpaqları feodalların əlinə keçirdi, torpaqsız qalan icma üzvləri asılı kəndlilərə çevirilirdi. Əkilib becərilməsi çətinlik törədən torpaqlar isə sahibsiz qalırdı. Bu dövrdə Azərbaycanın cənubu Atropatena, şimalı isə Azlbanya olmaqla Sasanı imperiyasının tərkibində idi. Sasani şahlarının islahatlarının islahatları ölkəmizdə feodal münasibətlərinin inkişafına böyük təsir göstərmişdir, nəticəsə vergiyığan məmurların özbaşınalığına son qoyulmuşdur. Azərbaycanın şimal torpaqlarına farsdilli tayfaların köçürülməsi, xəzərsahili

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

ərazilərdə mövqelərin möhkəmləndirilməsi üçün qalalar və müdafiə divarları inşa etdirirdilər. Beləliklə vı əsrin ortalarında Sasani dövləti Dərbənd keçid üzərindəki nəzarəti daha da gücləndirdi. Bunula da Böyük Qafqaz dağlarının zirvələrindən Xəzər dənizinin içəri sahillərinə qədər uzanan və bizim günlərə qədər öz əzəməti ilə insanları heyran edən möhtəşəm Dərbənd səddi və Dəmiqapı Dərbənd qalası yaradıldı. Vll-lX əsrlərdə isə Azərbaycanda Xilafətə daxil olan ölkələrdə mədəniyyət sahəsində də ciddi dəyişikliklər baş verdi. Müsəlman şərqində ərəb dili rəsmi dövlət dilinə çevrildi. İdarə və məhkəmələrdə, məktəb və mədrəsələrdə, elmi və bədii əsərlər yazılarkən yalnız ərəb dili işlənilirdi. Bu dövrdə İslamın təsiri ilə memarlıq və xəttatlıq daha güclü inkişaf edirdi. Günbəzli məscidlər tikilir, kufi xətti ilə kitabələr yaradılırdı. Bu dövrdə Bərdədə Tərtər çayı üzərində daş körpü, Şamaxıda böyük Cümə məscidi inşa edilmişdi. Xl-Xll əsrlər müsəlman intibahı dövrü Azərbaycanla sırf bağlı olmuşdur. Qədim və erkən orta yüzilliklərdə mədəniyyətin müxtəlif sahələrində böyük uğurlar qazanmış, Azərbaycan xalqı bu mədəni oyanışa çox dəyərli töhvələr vermişdir. Torpaqdan istifadənin təkmil formalarının meydana gəlməsi sənətkarlıq və ticarətin inkişafı Azərbaycanda iqtisadi dirçəlişi daha da sürətləndirdi. Şəhərlərimizin ölkə həyatında rolu daha da artdı. Beləliklə də Gəncə, Şamaxı, Təbriz, Ərdəbil, Dərbənd, Naxçıvan bütövlükdə Şərqin önəmli sənətkarlıq və ticarət mərkəzinə çevrildi. İntibah dövründə həmçinin çoxlu məktəblər açıldı, yüksək təhsil verən mədrəsələr yaradıldı. Mədrəsələrdə Qurani-Kərim öyrədilir, dini biliklər və şəriətlə yanaşı məntiq, ərəb və fars dilləri müxtəlif təbiət elmləri öyrədilirdi. İntibah dövründə həm də şəhərsalma və memarlıq özünün yüksəliş dövrünü yaşayırdı. Bu dövrdə Azərbaycanın bütün böyük şəhərləri yeraltı saxsı borularla, içməli su ilə təchiz

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

olunurudu, çirkab suları isə xüsusi borularla yaşayış məntəqəsindən kənara axıdılırdı.

Xlll-XlV əsrlərdə Azərbaycanın mədəni həyatında baş vermiş ən önəmli yenilik böyük alim Nəsrəddin Tusinin Şamaxıda yaratdığı "Marağa rəsədxanası" olmuşdur. N. Tusi həm də görkəmli dövlət xadimi idi. O, Hülakü xanın məsləhətçisi, Abaqa xanın vəziri olmuşdur.

Beləliklə XV-XVl əsrlərdə bir-birini əvəz edən türk mənşəli sülalələrin hakimiyyəti dövründə mədəniyyətin inkişafına geniş imkanlar yarandı. Məktəb və mədrəsələr bu dövrdə əsas təhsil ocaqları kimi fəaliyyətini davam etdirirdi. XV əsrdə Azərbaycanın mədəni həyatında hökmdar–şair Cahan şah Həqiqinin böyük xidmətləri olmuşdur.

XVl əsrdə Azərbaycan-Türk dilinin Səfəvi imperatorluğunun dövlət dilinə çevrilməsi onun daha da inkişafına səbəb oldu. Səfəvi şahlarının müdrik siyasəti nəticəsində bu dövrdə fars dilində yazmaq ənənəsi tədricən öz yerinə Azərbaycan-Türk dilinə verdi.

Göründüyü kimi Azərbaycan xalqı uzun əsrlər boyu öz azadlığı, öz həyatı uğrunda böyük mübarizələr aparmış və əzmkarlıq göstərmişdir. Öz bayrağı, öz dili, öz qanunları olan bir dövlətdir.

Hələ XIX əsrin əvvəllərində də Azərbaycanda feodal pərakəndəliyinin hökm sürdüyü dövr idi. İran və Rusiyanın maraq dairəsində olan Axərbaycan ərazisində tərəflər qanlı döyüşlər aparır, xanlıqlarla vuruşur, onları danışıqlar və ya zor gücünə öz nüfuz dairələrinə keçiməyə, son nəticədə Azərbaycanı parçalamağa can atdılar və buna nail oldular. XlX əsrin əvvəllərində cərəyan edən hadisələr Azərbaycanın tarixi siyasi coğrafiyasına əsaslı təsir etdi. Gülüstan və Türkmənçay müqavilələri nəticəsində Azərbaycanın orta əsrlərdəki vahid ərazisi iki qismə bölündü. Azərbaycanın iki yerə bölünməsi

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

tarixi ədəbiyyatda şərti olaraq “Cənubi Azərbaycan (İran Azərbaycanı)”, “Şimali Azərbaycan (Rusiya Azərbaycanı)” kimi terminlərin meydana gəlməsinə səbəb oldu. 1918-ci ildə Azərbaycan Cumhuriyyəti Dövlət Parlamentinin bəyənnaməsində “Azərbaycan” adını işlətdi əslində isə şimali və cənubi Azərbaycan eyni etnik mənşəyə, dilə, dinə, adət-ənənəyə malik vahid bir xalqın məskunlaşdığı ərazinin iki yerə bölündüyü vaxtdan meydana gəlmiş, ilk vaxtlarda coğrafi məna kəsb etsədə sonralar siyasi xarakter daşımışdır. Bununla yanaşı şimali və cənubi Azərbaycanın, müxtəlif dövlətlərin, ictimai qurluşların tərkibində qalması onların siyasi-ictimai-iqtisadi, mədəni və mənəvi həyatına müxtəlif şəkildə təsir etmişdir. 1918-ci il mayın 28 də Azərbaycan xalq Cumhuriyyətinin yaradılması Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi daxil olmuşdur. Həmin tarix Respublika günü kimi təntənə ilə qeyd edilir. İstiqlal Bəyannaməsi bütün Türk-müsəlman dünyasında, ümumiyyətlə bütün şərqdə ilk dəfə olaraq Azərbaycanda ən demokratik idarə üsulunun- parlamentli respublikanın yaradılacağından xəbər verirdi. Azərbaycan Xalq Cumhuriyyətinin parlamenti öz fəaliyyəti ərzində, o cümlədən 17 aylıq aramsız fəaliyyəti dövründə həyata keçirdiyi müstəqil dövlət quruculuğu təcrübəsi ilə qəbul etdiyi yüksək səviyyəli qanunvericilik aktları və qərarları ilə Azərbaycan dövlətçiliyi tarixində, xüsusilə də parlament mədəniyyəti tarixində dərin və zəngin iz qoymuşdur. Çox mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq xalqımızın milli oyanışını əbədi etməyə çalışan Cümhuriyyət Hökuməti və Parlamenti elmin təhsilin və xalq marifinin, səhiyyənin inkişafını diqqət kərkəzində saxlayırdı. Ölkənin hər yerində müxtəlif pillədən olan məktəblər, gimnaziyalar, qız məktəbləri, uşaq baxçaları, qısa müddətli müəllim kursları, kitabxanalar açılır, kənd yerlərində xəstəxana və feldşer məntəqələri şəvəkəsi yaradılır,

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

yoluxucu xəstəliklərə qarşı mübarizə aparılırdı. Bu baxımdan parlamentin Cümhuriyyət dövründə Azərbaycanda parlamentçilik ənənələri getdikcə möhkəmlənir və inkişaf edir, ən müasir parlament mədəniyyəti dormalaşırdı. Sovet Ruaiyasının hərbi müdaxiləsi və Xl Qızıl Ordu hissələrinin qanlı hərbi əməliyyatları nəticəsində şimali Arbaycan yenidən Rusiyanın tərkibinə qatılsa da AXC xalqımızın azadlıq hərəkatı tarixində dərin iz qoydu. Cəmi 23 ay yaşamasına baxmayaraq AXC sübut etdi ki, ən qəddar müstəmləkə və represiya rejimləri belə Azərbaycan xalqının azadlıq ideyalarını və müstəqil dövlətçilik ənənələrini məhv etməyə qadir deyildir. Azərbaycan xalqının tarixində ilk parlamentli respublika olan AXC eyni zamanda bütün şərqdə, o cümlədə Türk-İslam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi. Tarix boyu hətta müstəmləkəyə çevilsə belə bu gün Azərbaycan müstəqil Respublikadır.

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

**Zenfira Seyidova**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0005-0135-5035
turalmemmedov521@gmail.com

# Naxçıvan muzeylərində tarixi yaddaşın qorunması və maddi-mədəni irsin ekspozisiya vasitəsilə təqdimatı

***Açar sözlər:*** *Naxçıvan muzeyləri, tarixi yaddaş, maddi-mədəni irs, ekspozisiya, muzeyşünaslıq, milli kimlik*
***Keywords:*** *Nakhchivan museums, historical memory, material and cultural heritage, exposition, museology, national identity*

Muzeylər hər bir xalqın tarixi yaddaşının qorunmasında, maddi və mənəvi irsinin sistemli şəkildə öyrənilməsində, elmi əsaslarla təqdim edilməsində mühüm rol oynayan mədəniyyət müəssisələridir (Hooper-Greenhill, 2007). Müasir dövrdə muzey anlayışı yalnız eksponatların qorunduğu və nümayiş etdirildiyi ənənəvi məkan kimi deyil, həm də elmi-tədqiqat, maarifləndirmə, təbliğat və mədəni kommunikasiya funksiyalarını yerinə yetirən çoxistiqamətli institut kimi dəyərləndirilir. Bu baxımdan muzey ekspozisiyası sadəcə əşyaların düzülüşü və vizual təqdimatı deyil, tarixi hadisələrin, sosial-mədəni proseslərin, xalqın həyat tərzinin, estetik dünyagörüşünün və milli kimlik elementlərinin elmi-məntiqi ardıcıllıqla şərhidir (Məmmədov, 2014, s. 26).

Naxçıvan Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri kimi zəngin arxeoloji, etnoqrafik, memarlıq və sənətkarlıq irsinə malikdir. Bu diyarın ərazisində aşkar edilmiş qədim yaşayış yerləri, nekropollar, qala və müdafiə tikililəri, türbələr,

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

məscidlər, körpülər, məişət əşyaları, əmək alətləri, keramika nümunələri və digər maddi-mədəniyyət abidələri Naxçıvanın tarixi inkişaf mərhələlərini öyrənmək baxımından mühüm mənbə əhəmiyyəti daşıyır. Region muzeylərində qorunan və nümayiş etdirilən bu materiallar Naxçıvanın təkcə yerli tarixinin deyil, ümumilikdə Azərbaycan tarixinin və mədəniyyətinin öyrənilməsində mühüm elmi baza yaradır (Əliyev, 1997).

Naxçıvan muzeylərində tarixi yaddaşın qorunması məsələsi, ilk növbədə, maddi-mədəni irs nümunələrinin toplanması, mühafizəsi, elmi təsnifatı, fondlarda saxlanılması və ekspozisiya vasitəsilə cəmiyyətə təqdim olunması ilə bağlıdır. Hər bir eksponat müəyyən tarixi dövrün, ictimai münasibətlərin, istehsal və məişət mədəniyyətinin, dini dünyagörüşün, sənətkarlıq ənənələrinin və estetik zövqün daşıyıcısıdır. Muzey mühitində həmin eksponat artıq yalnız maddi predmet kimi deyil, tarixi məna daşıyan, keçmiş haqqında informasiya verən və ictimai yaddaşın formalaşmasına təsir göstərən mədəni mənbə kimi çıxış edir. Buna görə də muzey ekspozisiyasının elmi əsaslarla qurulması tarixi yaddaşın düzgün təqdimatı baxımından xüsusi əhəmiyyət kəsb edir (Seyidov, 2010).

Ekspozisiya quruluşunda tarixi ardıcıllıq prinsipi mühüm yer tutur. Naxçıvan muzeylərində qədim dövrlərdən başlayaraq orta əsrlər, yeni və müasir dövrə qədər olan tarixi mərhələlərin sistemli şəkildə təqdim edilməsi ziyarətçidə regionun tarixi inkişafı haqqında bütöv təsəvvür formalaşdırır. Arxeoloji tapıntıların, etnoqrafik materialların, yazılı sənədlərin, fotoşəkillərin, xəritələrin və bərpa edilmiş nümunələrin bir-biri ilə məzmun əlaqəsi daxilində təqdim olunması ekspozisiyanın elmi dəyərini artırır. Bu yanaşma həm də muzeyin maarifləndirici funksiyasını gücləndirir, çünki ziyarətçi ayrı-ayrı əşyaları deyil, həmin əşyaların aid olduğu tarixi mühiti, sosial

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

münasibətləri və mədəni inkişaf proseslərini dərk etmək imkanı əldə edir.

Naxçıvan muzeylərində maddi-mədəni irsin təqdimatı zamanı arxeoloji materiallar xüsusi əhəmiyyət daşıyır. Qədim yaşayış yerlərindən, kurqanlardan, nekropollardan və qala tipli abidələrdən əldə edilmiş nümunələr regionun erkən sivilizasiya mərkəzlərindən biri olduğunu göstərən mühüm faktoloji bazadır. Daş, sümük, metal və keramika materiallarından hazırlanmış əmək alətləri, məişət əşyaları, silah nümunələri və bəzək əşyaları qədim insanların təsərrüfat həyatı, sənətkarlıq bacarıqları, dini inancları və sosial münasibətləri haqqında geniş məlumat verir. Bu tip eksponatların muzey ekspozisiyasında dövr, funksiya və məzmun baxımından düzgün qruplaşdırılması onların elmi izahını daha anlaşıqlı edir.

Etnoqrafik materiallar isə xalqın gündəlik məişətini, ailə münasibətlərini, geyim mədəniyyətini, təsərrüfat ənənələrini və mərasim sistemini öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir. Naxçıvanın xalçaçılıq, misgərlik, dulusçuluq, daşişləmə, ağacoyma və digər sənətkarlıq sahələri ilə bağlı eksponatlar regionun zəngin yaradıcılıq ənənələrini əks etdirir. Bu nümunələrin ekspozisiyada yalnız bədii-estetik baxımdan deyil, həm də sosial və tarixi məzmun daşıyan maddi mənbə kimi təqdim edilməsi vacibdir. Məsələn, bir xalça nümunəsi yalnız toxuculuq məhsulu kimi deyil, həm də ornament sistemi, rəng seçimi, məişət funksiyası və yerli bədii düşüncənin ifadəsi kimi izah olunmalıdır. Bu yanaşma eksponatın mənasını genişləndirir və ziyarətçinin onu daha dərindən qavramasına şərait yaradır.

Muzey ekspozisiyasında maddi-mədəni irsin təqdimatı milli kimliyin qorunması və təbliği ilə də sıx bağlıdır. Tarixi yaddaş yalnız keçmiş hadisələrin xatırlanması deyil, həm də həmin keçmişin müasir ictimai şüurda yaşadılması və gələcək nəsillərə

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

ötürülməsidir. Naxçıvan muzeylərində nümayiş etdirilən abidə maketləri, sənədlər, qədim məişət əşyaları, arxeoloji tapıntılar və sənətkarlıq nümunələri milli-mədəni varisliyin canlı göstəriciləri kimi çıxış edir (Hein, 1998).

Müasir muzeyşünaslıqda ekspozisiya yalnız statik nümayiş sistemi kimi qəbul edilmir. Hazırkı dövrdə muzeylərin qarşısında duran əsas vəzifələrdən biri ziyarətçi ilə eksponat arasında daha fəal əlaqə yaratmaqdır. Bu məqsədlə interaktiv vasitələrdən, rəqəmsal texnologiyalardan, multimedia təqdimatlarından, elektron məlumat lövhələrindən, virtual turlardan və maarifləndirici proqramlardan istifadə mühüm əhəmiyyət daşıyır. Naxçıvan muzeylərində də maddi-mədəni irsin təqdimatında bu istiqamətlərin genişləndirilməsi ekspozisiyaların təsir gücünü artıra bilər. Xüsusilə gənc nəslin muzeylərə marağının artırılması, tarixi biliklərin daha aydın və yadda qalan formada çatdırılması üçün rəqəmsal təqdimat üsulları səmərəli vasitə hesab olunur.

Muzeylərin maarifləndirici funksiyası onların cəmiyyətlə əlaqəsində əsas istiqamətlərdən biridir. Naxçıvan muzeylərində təşkil olunan ekspozisiyalar məktəblilər, tələbələr, tədqiqatçılar və geniş ictimaiyyət üçün mühüm bilik mənbəyidir. Muzey dərsləri, tematik ekskursiyalar, sərgilər, elmi-praktik tədbirlər və mədəni-maarif proqramları tarixi yaddaşın cəmiyyətə ötürülməsində əhəmiyyətli rol oynayır. Bu baxımdan muzey ekspozisiyası yalnız seyr edilən məkan deyil, həm də öyrənmə, düşünmə və nəticə çıxarma mühiti kimi qiymətləndirilməlidir. Eksponatların elmi izahı, onların tarixi kontekstə bağlanması və ziyarətçiyə anlaşıqlı dillə təqdim olunması muzeyin maarifləndirici təsirini gücləndirir.

Naxçıvan muzeylərində ekspozisiya vasitəsilə təqdim olunan maddi-mədəni irs regionun tarixi coğrafiyasını, mədəni əlaqələrini və sivilizasiya proseslərindəki yerini də

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

aydınlaşdırmağa imkan verir. Naxçıvan tarixən Şərq və Qərb arasında mühüm keçid məkanlarından biri olmuş, ticarət yollarının, mədəni təmasların və müxtəlif sənət ənənələrinin formalaşdığı ərazi kimi seçilmişdir. Bu tarixi mövqenin muzey ekspozisiyalarında xəritələr, arxeoloji materiallar, memarlıq nümunələri və yazılı mənbələrlə əlaqəli şəkildə təqdim edilməsi ziyarətçidə regionun tarixi əhəmiyyəti barədə daha dolğun təsəvvür yaradır. Belə təqdimat Naxçıvanın yalnız lokal mədəni məkan deyil, ümumazərbaycan və ümumtürk mədəniyyətinin mühüm tərkib hissəsi olduğunu göstərir.

Bu baxımdan muzeylər və elmi müəssisələr arasında əməkdaşlığın gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Ali təhsil müəssisələri, elmi-tədqiqat qurumları, arxeoloji ekspedisiyalar və muzeylər arasında əlaqələrin genişləndirilməsi maddi-mədəni irsin daha dərindən öyrənilməsinə şərait yaradır. Tələbələrin, magistrantların və gənc tədqiqatçıların muzey materialları əsasında araşdırmalar aparması həm elmi kadr hazırlığı, həm də muzey fondlarının elmi dövriyyəyə cəlb edilməsi baxımından faydalıdır. Naxçıvan muzeylərinin bu istiqamətdə imkanları kifayət qədər genişdir və həmin imkanlardan səmərəli istifadə olunması regional mədəniyyətşünaslıq və muzeyşünaslıq tədqiqatlarının inkişafına töhfə verə bilər.

Nəticə etibarilə, Naxçıvan muzeylərində tarixi yaddaşın qorunması və maddi-mədəni irsin ekspozisiya vasitəsilə təqdimatı çoxşaxəli elmi, mədəni və maarifləndirici əhəmiyyətə malikdir. Bu muzeylər keçmişin maddi izlərini qorumaqla yanaşı, həmin izləri müasir cəmiyyət üçün anlaşıqlı tarixi bilik mənbəyinə çevirir. Ekspozisiyalarda təqdim olunan arxeoloji, etnoqrafik, sənətkarlıq və memarlıq nümunələri Naxçıvanın qədim tarixini, zəngin mədəni mühitini və milli yaddaş sistemindəki yerini aydın şəkildə nümayiş etdirir. Müasir

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

muzeyşünaslıq prinsiplərinə uyğun olaraq ekspozisiyaların elmi əsaslarla qurulması, rəqəmsal və interaktiv vasitələrlə zənginləşdirilməsi, maarifləndirici funksiyanın gücləndirilməsi və fond materiallarının tədqiqata cəlb olunması Naxçıvan muzeylərinin ictimai və elmi rolunu daha da artırır.

## Ədəbiyyat

1. Azərbaycan Milli Ensiklopediyası. (2002). *Azərbaycan muzeyləri*. Azərbaycan Milli Ensiklopediyası.
2. Əliyev, V. (1997). *Naxçıvanın qədim tarixi və arxeoloji abidələri*. Elm.
3. Hein, G. E. (1998). *Learning in the museum*. Routledge.
4. Hooper-Greenhill, E. (2007). *Museums and education: Purpose, pedagogy, performance*. Routledge.
5. Məmmədov, S. (2014). *Muzeyşünaslığın əsasları*. Təhsil.
6. Seyidov, A. (2010). *Naxçıvanın maddi mədəniyyəti*. Əcəmi.

Tarix elmlərində müasir tələblər və tədqiqatlar I Beynəlxalq Elmi Konfrans / 15 aprel 2026 / 59-62
Modern Requirements And Research In Historical Sciences I International Scientific Conference / 15 april 2026 / 59-62
https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

**İbrahim Əfəndiyev**
Bakı Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0002-1925-6930
ibrahimefendiyev0@gmail.com

# Hunların digər türk xalqları ilə əlaqələri

***Açar sözlər:*** *Hunlar, türk xalqları, bulqarlar, savirlər, sarmatlar, alanlar, Qafqaz*
***Keywords:*** *huns, turkic peoples, bulgars, savirs, sarmatians, alans, Caucasus*

Hunların digər türk xalqları ilə əlaqələri son antik dövrdə və erkən orta əsrlərdə Avrasiya köçərilərinin tarixinin araşdırılmasının əsas aspektini təşkil edir. Bu mövzunun aktuallığı, Böyük Köçürmə hadisələri ilə daha da artır, bu hadisələrdə genişmiqyaslı miqrasiyalar və hərbi-siyasi çevrilişlər Avrasiyanın etnik və siyasi xəritəsini kökündən dəyişdirdi. Hunların digər türk və prototürk qrupları ilə qarşılıqlı təsiri etnik yaxınlıq, hərbi ittifaqlar və bəzi qəbilələrin digərləri tərəfindən mənimsənilməsi xüsusiyyətlərini özündə birləşdirərək yüksək dinamik idi. Bu məqalədə Hunların digər çöl birlikləri ilə siyasi, hərbi və mədəni əlaqələrinin hərtərəfli təhlili tələb olunur. Bu məsələnin öyrənilməsi, Hun hərbi-siyasi təşkilatının elementlərini miras alan erkən türk dövlətlərinin yaranmasını daha dərindən anlamağa imkan verir.

**Hunların türk xalqları ilə münasibətləri haqqında.** Türk dillərində danışan xalqlar qədim dövrlərdən bəri tarixi salnamələrdə xatırlanır, baxmayaraq ki, "türk" termini hələ istifadə olunmurdu. Müstəqil bir etnik varlıq kimi özünü "türk" adlandıran qrup yalnız eramızın VI əsrinin əvvəllərində ortaya

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

çıxmışdır. Bu xalqlar tarixdə müxtəlif adlarla ortaya çıxır: Hunlar, Hunlar, Uyğurlar, Qulamlar, Səlcuqlular, Məmlüklər, Qıpçaqlar, Şeybanilər və başqaları və yuxarıdakı siyahı tam deyil. Zamanla "Türk" termini mənasını dəyişdi və bir dil qrupunun adı kimi qəbul edildi. Bu gün türk xalqlarının yayılma dairəsi daim genişlənir, çünki türklər ekzoqamiya tətbiq edir, qeyri-türk mənşəli qadınlarla evlənirlər. Onlar qarşılaşdıqları bütün etnik qruplarla evlənirlər və onların dili diqqətəlayiq cazibə gücünə malikdir (Rakhmanaliyev, 2013, s. 2).

Hunların türk mənşəli olması adətən mənbələrdə qeydə alınmış fərdi sözlərin olması ilə sübut olunur. Hun lideri Balamberin adının türk kökləri var: birinci hissə olan "balam" "mənim uşağım" deməkdir, ikinci hissə olan "ber" isə "vermək, hədiyyə etmək" və ya "bir" - "yeganə" kimi tərcümə olunur. Türklər arasında görkəmli şəxsiyyətlər tez-tez adlarını dəyişirdilər və yeni ad onların sosial statusunu əks etdirmək üçün nəzərdə tutulmuşdu. Attilanın oğlu Ellakenin adında -lı şəkilçisi qədim tam formada -lik (-lak) şəklində istifadə olunur və onun kökü olan izl (zal) "ölkə" deməkdir. Attilanın ikinci oğlu Dintsik və ya Dengitsikin adı müxtəlif yollarla şərh olunur: mümkün variantlara "tintsik" ("layiq olmaq"), "tansik" ("çoxdan gözlənilən") və ya "dengitsik" ("dənizlərdə üzmək") və s. daxildir. Attilanın sevimli həyat yoldaşı Kerkanın adı çuvaş dilindəki Xerkke sözündən götürülmüşdür. Türklər sevimli və cəlbedici qızlarını Kerka adlandırırdılar, yəni "axmaq" (Zakiyev, 2011, s. 295-296).

Hunlar Albaniya ərazisinə nüfuz edən ən qədim türkdilli komponent hesab olunur ki, bu da onların etnik transformasiyalardakı rolunu müəyyən edir. Türkdilli elementin Qafqazdilli mühitə inteqrasiyası ilə başlayan və oğuzların iştirakı ilə orta əsrlər Azərbaycan xalqının formalaşmasında kulminasiya nöqtəsinə çatan proses müasir xalqın yaranmasına

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

gətirib çıxardı (Dzhafarov, 1985, s. 4). Hunların Qafqazda mövcudluğu IV və V əsrlərin sonlarında genişmiqyaslı yürüşlərdən çox əvvələ, ilk böyük işğalın isə 1470-ci illərə təsadüf etdiyi bir dövrə təsadüf edir. Ümumilikdə, onların Qafqaza gəlişi çoxmərhələli bir proses idi. Birinci mərhələ (II-IV əsrlər) Dionisius Perieget tərəfindən qeydə alındığı kimi, 160-cı ildə Volqanı keçdikdən sonra Hunların Orta Asiyadan irəliləməsi və şimal-qərbi Xəzər bölgəsinin çöllərində məskunlaşması ilə əlamətdar idi. Hələ 3-cü əsrdə onlar artıq hərbi yürüşlərdə iştirak edirdilər: Parfiya kralı Xosrov Sasanilərlə qarşıdurmaya qüvvələrini yerləşdirdi. Onların Cənubi Qafqaza irəliləməsi Dərbənd aşırımı və Darial dərəsindən keçərək, Bizans mənbələrində Bersiliya kimi xatırlanan Şimali Dağıstanda Hunların yerini tutdu. İkinci mərhələ (IV-V əsrlərin ikinci yarısı) əhalinin, mal-qaranın və iqtisadi sərvətlərin hərəkəti ilə müşayiət olunan kütləvi miqrasiya ilə xarakterizə olunurdu. 360-cı illərin sonlarında Hunlar Volqanı keçərək Şimali Qafqaz çöllərinə hücum etdilər və orada Alanlar ilə toqquşdular. 360-cı illərdən 370-ci illərə qədər davam edən uzun müharibələrdən sonra Hunlar qalib gələrək Alanları hərbi-siyasi ittifaqlarına daxil etdilər və Xəzərdən Azov dənizinə qədər geniş ərazilərdə hökmranlıq yaratdılar. Üçüncü mərhələ 371-ci ildə, indi Alanlarla müttəfiq olan Hunların Şimali Qara dəniz bölgəsinə hücum etməsi ilə başladı. Bu hadisələrə yüksək dərəcədə təşkilatlanma və vahid hərbi komandanlıqla seçilən böyük bir hərbi-siyasi qurumun - Hun qəbilə birliyinin yaradılması fonunda baxılmalıdır. Onların genişlənməsi regionun etnosiyasi xəritəsinin transformasiyasında əsas amilə çevrildi (Akhundova, & Guseynzade, 2012, s. 8-9).

Beləliklə, Hun imperiyası olduqca kövrək oldu: Attilanın ölümündən sonra onun işini davam etdirə biləcək heç bir varis

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

tapılmadı. Beləliklə, imperiya mövcudluğunu dayandırdı və onun xarabalıqlarında yeni Asiya imperiyaları yaradılmazdan əvvəl Avropa bir fasilə əldə etdi (Al'fan, 2006, s. 31-32). VI əsrdə "Hun" termini yoxa çıxır, bəzən sonrakı tarixçilərdə anaxronizm kimi yenidən ortaya çıxır. Hun birliyinin xarabalıqlarında yaranan və əvvəllər Hun birliyinin tərkibində olan eyni köçəri tayfaların tarixi davamı olan yeni bir köçəri birlik - avarlar meydana gəldi (Bernshtam, 1951, s. 166).

## Ədəbiyyat

1. Akhundova, N. Ch., & Guseynzade, R. A. (2012). *Kavkaz i velikiye tyurkskiye imperii*. EUROCLIO.
2. Al'fan, L. (2006). *Velikiye imperii varvarov: Ot velikogo pereseleniya narodov do tyurkskikh zavoyevaniy XI v.* Veche.
3. Bernshtam, A. N. (1951). *Ocherk istorii gunnov*. Izdatel'stvo Leningradskogo gosudarstvennogo universiteta.
4. Dzhafarov, Yu. (1985). *Gunny i Azerbaydzhan*. El'm.
5. Rakhmanaliyev, R. (2013). *Imperiya tyurkov: Istoriya velikoy tsivilizatsii*. Ripol Klassik.
6. Zakiyev, M. Z. (2011). *Glubokiye etnicheskiye korni tyurkskikh narodov*. Kantana Press.

Tarix elmlərində müasir tələblər və tədqiqatlar I Beynəlxalq Elmi Konfrans / 15 aprel 2026 / 63-69
Modern Requirements And Research In Historical Sciences I International Scientific Conference / 15 april 2026 / 63-69
https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

**Nuray Məmmədli**
Naxçıvan Dövlət Universiteti
dissertant
https://orcid.org/0009-0008-0850-5413
nuray.memmedli31@gmail.com

# Orta Tunc dövrü mədəniyyətinin Yaxın Şərq və Cənubi Qafqazla əlaqələri

***Açar sözlər:*** *Azərbaycan, Orta Tunc dövrü, Cənubi Qafqaz, Yaxın Şərq, arxeoloji abidələr, boyalı keramika, metallurgiya, mədəni inteqrasiya*

***Keywords:*** *Azerbaijan, Middle Bronze Age, South Caucasus, Middle East, archaeological monuments, painted ceramics, metallurgy, cultural integration*

Orta Tunc dövrü, e.ə. III minilliyin sonlarından II minilliyin ortalarına qədər davam edən mərhələ olaraq, Cənubi Qafqaz və Yaxın Şərq regionlarının tarixində mühüm əhəmiyyət daşıyır. Bu dövr, cəmiyyətlərin sosial strukturlarında, yaşayış formalarında, iqtisadi fəaliyyətlərində və mədəni baxışlarda əhəmiyyətli dəyişikliklərlə müşahidə olunur. Tayfa başçıları və yerli elitaların mövqeyi ilə adi icmalar arasında sosial fərqlər genişlənmiş, qəbir abidələri və yaşayış yerlərinin planlaşdırılması bu bərabərsizliyi əks etdirmişdir.

Cənubi Qafqazın Orta Tunc dövründəki inkişafı təkcə yerli şərait və resurslarla əlaqəli olmamış, qonşu sivilizasiyalarla intensiv qarşılıqlı təsirin nəticəsi kimi də formalaşmışdır. Mesopotamiya, Anadolu və İran yaylası ilə iqtisadi, mədəni və texnoloji əlaqələr yeni istehsal üsullarını, metallurgiya texnikalarını, keramika formalarını və dekorativ naxış üslublarını bölgəyə gətirmişdir. Eyni zamanda, bu təsirlər dini

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

və rituallara dair yeni təsəvvürlərin, dəfn adətlərinin və sosial ritual mədəniyyətin inkişafına da səbəb olmuşdur.

Azərbaycanın digər bölgələrində aşkar olunan bu dövrün arxeoloji abidələri Orta Tunc dövrü mədəniyyətinin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir. Orta Tunc dövründə daş qarışıq torpaq kurqanlara və onların kromlexlə əhatə olunmasına Azərbaycan ərazisində yerləşən bir sıra abidədə rast gəlinir. Daş qutu tipli qəbir abidələri Naxçıvan ərazisində geniş yayılıb. Naxçıvanın Orta Tunc dövrünə aid yaşayış yerləri ilə qəbir abidələrinin materialları bir-birini tamamlayır. Bu ərazinin Orta Tunc dövrü qəbirləri əsasən torpaq və daş qutu tipli olub, üzəri torpaq qarışıq kurqanla örtülüb. Bir qrup qəbirdə ölünün olduğu kimi (inqumasiya) basdırılmasına (Çalxanqala kurqanları, Qızılburun, Ağsal nekropolu və b) və ikinci qrupa aid skeletsiz qəbirlərə (I Şahtaxtı, II Şahtaxtı, Kükü və b.) rast gəlinir. Həmçinin tək, cüt və kollektiv dəfn (Qızılburun, Naxçıvan nekropolu və b.) adətləri qeydə alınmışdır (Seyidov, 2021, s. 96).

Orta Tunc dövrünün mühüm xüsusiyyətlərindən biri təsərrüfatın sürətli inkişafı və bunun fonunda tayfalararası münasibətlərin kəskinləşməsidir. Bu proseslərin nəticəsi olaraq yaşayış məskənlərinin ətrafında möhkəmləndirilmiş müdafiə qurğuları salınmışdır. Belə divarların qalıqları II Kültəpə, Qaraköpəktəpə, Üzərliktəpə və Göytəpə abidələrində aydın şəkildə müşahidə edilir.

Orta Tunc dövrünün formalaşması haqqında tədqiqatçılar arasında bir neçə fikir mövcuddur. Bəziləri belə hesab edir ki, Orta Tunc dövrü mədəniyyəti Cənubi Qafqaz ərazisinə Ön Asiya etnik qrupları tərəfindən gətirilmişdir. Ç.Barney, C.Mellart isə bu mədəniyyətin yayılmasını cənubdan deyil, şimaldan - hind-avropa əhalisinin gəlişi ilə bağlayırlar (Burney, 1958, s.163). Bu fikrə şərik olan və yanlış düşünən müəyyən tədqiqatçılar belə

Tarix elmlərində müasir tələblər və tədqiqatlar I Beynəlxalq Elmi Konfrans / 15 aprel 2026 / 63-69
Modern Requirements And Research In Historical Sciences I International Scientific Conference / 15 april 2026 / 63-69
https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

hesab edir ki, İran, Şimali Qafqaz və Kiçik Asiyadan gələn tayfaların yerli əhalini assimlyasiya etməsi nəticəsində e.ə. III minilliyin sonlarında Cənubi Qafqaz ərazisində Orta Tunc dövrü mədəniyyəti meydana çıxmışdır (Simonyan, 1954, s. 11). Lakin araşdırmalar bu nəzəriyyələrin yalnış olduğunu sübut etmişdir. Orta Tunc dövrünü öyrənən bir çox tədqiqatçılar bu mərhələ ilə ondan əvvəlki İlk Tunc dövrü arasında müəyyən davamlılıq olduğunu qeyd edirlər. Bu nəticəyə gəlməkdə əsas meyar kimi gil məmulatının xüsusiyyətləri, tikinti üsulları və digər maddi mədəniyyət nümunələri götürülür. Keramika istehsalında forma və texniki oxşarlıqlar, yaşayış məskənlərinin planlaşdırılmasında isə müəyyən paralellər bu iki dövr arasında birbaşa mədəni bağlılığın mövcudluğunu göstərir. Həmçinin dəfn adətlərində və təsərrüfat fəaliyyətində müşahidə edilən oxşarlıqlar, Orta Tunc dövrü mədəniyyətinin yalnız xarici təsirlərin nəticəsi olmadığını, eyni zamanda yerli ənənələrin davamı kimi formalaşdığını təsdiqləyir. Bu baxımdan Orta Tunc dövrü həm əvvəlki mərhələlərin təcrübəsini qoruyub saxlayan, həm də yeni mədəni elementlərin sintez olunduğu bir inkişaf mərhələsi kimi xarakterizə edilə bilər. Xüsusilə, Naxçıvan ərazisində O.Həbibullayev, V.Əliyev, V.Baxşəliyev və başqa arxeoloqlar tərəfindən ardıcıl aparılmış arxeoloji qazıntı işlərinin nəticələri sübut edir ki, Naxçıvan ərazisində Orta Tunc dövrü mədəniyyəti yerli mədəniyyətlərin təbii davamı kimi meydana çıxmışdır (Baxşəliyev, Seyidov, 1995; Seyidov, 2000).

Azərbaycan ərazisində, xüsusilə Qazax, Gəncə-Qarabağ və Naxçıvan bölgələrində Orta Tunc dövrünə aid zəngin arxeoloji materiallar aşkar edilmişdir. Tapılan nümunələr – silahlar, əmək alətləri, keramika və zərgərlik məmulatları – regionun yüksək mədəni inkişaf səviyyəsini nümayiş etdirir. Orta Tunc dövrünə aid boyalı qablar həm forma, həm də naxış üslubuna görə İranın Urmiya bölgəsində rast gəlinən mədəniyyətlə eyni

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

xüsusiyyətləri paylaşır. Bununla belə, onların yayılmasında müəyyən boşluqlar nəzərə çarpır. Belə ki, Kür-Araz mədəniyyətində boyalı qab nümunələrinə rast gəlinmir. Bu fakt göstərir ki, Eneolit dövründə mövcud olan və lokal ənənələr əsasında hazırlanan boyalı qab istehsalı müəyyən fasilədən sonra Orta Tunc dövründə yenidən dirçəlmişdir.

Araşdırmalar göstərir ki, Cənubi Qafqazda Orta Tunc dövrü boyalı qablarının Sevan-Üzərlik mədəniyyəti adlandırılması və bu mədəniyyətin Ararat vadisində ortaya çıxması haqqında tədqiqatçıların fikri olduqca yanlışdır. Bildirdiyimiz kimi, K.X.Kuşnaryevanın bu qrupa daxil etdiyi abidələr, başlıca olaraq, nekropollarla təmsil olunmuşdur. Bu qrupa aid edilən Üzərliktəpə yaşayış yerində boyalı qablar gil məmulatının yalnız 2 %-ni təşkil edir. Qeyd edilməlidir ki, Üzərliktəpə, Sevan hövzəsi və Ermənistanın digər yerləri üçün xarakterik olan bəzəmə stili Naxçıvandan, xüsusilə II Kültəpədən yayılmışdır (Baxşəliyev, 2007, s. 171).

Cənubi Qafqazın Orta Tunc dövründəki ən diqqətçəkən mədəniyyət nümunəsi Trialeti mədəniyyətidir. Bu mədəniyyət kurqan abidələri, zəngin metallurgiya və keramika məhsulları ilə fərqlənir. Kurqanlarda tapılmış inventarlar, xüsusilə də bəzək əşyaları və silahlar, Yaxın Şərq aristokratik təbəqələrinin dəfn ənənələri ilə oxşarlıq göstərir. Tədqiqatçı K.X. Kuşnaryeva Trialeti mədəniyyətində aşkarlanan boyalı qab nümunələrinə əsaslanaraq bu mədəniyyətin təsir dairəsinin Van gölü hövzəsinə, Naxçıvana və Urmiya ətrafına qədər yayıldığını irəli sürmüşdür. Bununla belə, qeyd edilməlidir ki, boyalı qablar Trialeti mədəniyyətinin əsas göstəricisi deyildir. Burada yüzlərlə kurqanın tədqiqinə baxmayaraq, yalnız bir neçəsində boyalı keramikaya rast gəlinmişdir. Trialeti mədəniyyətini daha çox qara cilalı və cizgi naxışlı gil qablar xarakterizə edir. Əgər Cənubi Qafqazın digər ərazilərində yalnız monoxrom boyalı qab

Tarix elmlərində müasir tələblər və tədqiqatlar I Beynəlxalq Elmi Konfrans / 15 aprel 2026 / 63-69
Modern Requirements And Research In Historical Sciences I International Scientific Conference / 15 april 2026 / 63-69
https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

nümunələri izlənirsə, Naxçıvan və Urmiya hövzəsində bu keramikanın müxtəlif inkişaf mərhələləri müşahidə olunmuşdur. Xüsusilə də Urmiya və Naxçıvanda boyalı qab istehsalı daha uzunömürlü olmuş, hətta Erkən Dəmir dövrünədək davam etmişdir. Belə nəticəyə gəlmək olar ki, Orta Tunc dövründə Cənubi Qafqazda boyalı qabların əsas istehsal ocaqları məhz bu iki bölgədə yerləşmişdir. Buradan həmin məmulatların Cənubi Qafqazın başqa ərazilərinə, o cümlədən Gəncəçay vadisinə və Mil düzünə yayıldığı ehtimal olunur.

Cənubi Qafqaz və Yaxın Şərq arasında Orta Tunc dövründə baş verən qarşılıqlı əlaqələr həm iqtisadi, həm də mədəni sahələri əhatə etmişdir. Mesopotamiya, Anadolu və İran yaylası ilə qurulan münasibətlər yeni texnologiyaların, sənətkarlıq metodlarının və dini təsəvvürlərin Cənubi Qafqaza daxil olmasına imkan yaratmışdır. Cənubi Qafqazın cənub rayonları, xüsusilə Naxçıvan-Urmiya hövzəsi və Şərqi Anadolu üçün xarakterik olan boyalı qabların genezisi ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Arxeoloji ədəbiyyatda «Van-Urmiya boyalıları», «Trialeti mədəniyyəti», «Təzəkənd mədəniyyəti», «Naxçıvan mədəniyyəti» və başqa adlarla tanınan Orta Tunc dövrü mədəniyyətinin mənşəyi ilə bağlı tədqiqatçılar arasından yekdil fikir yoxdur. Boyalı qablar mədəniyyətinin KürAraz mədəniyyətindən törəməsi haqqında söylənən fikirlər bizcə, doğru deyildir. Kür-Araz mədəniyyətindən tamamilə fərqlənən boyalı qablar mədəniyyəti bu bölgədə məskunlaşan yerli tayfaların yenidən yüksəlişi ilə bağlı olmuşdur (Baxşəliyev, 2007, s. 171). Maraqlıdır ki, Kür-Araz mədəniyyətində boyalı qab nümunələri müşahidə olunmur, bu da Orta Tunc dövründə ənənənin yenidən dirçəlməsindən xəbər verir.

Cənubi Qafqaz və Yaxın Şərq arasında əlaqələrin mühüm istiqamətlərindən biri də ticarət idi. Bu baxımdan duz istehsalı və mübadiləsi xüsusi yer tuturdu. Naxçıvanda yerləşən Duzdağ

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

yatağı arxeoloji tədqiqatlar nəticəsində Orta Tunc dövründən etibarən istismar olunmuş istehsal mərkəzi kimi müəyyən edilmişdir. Buradan çıxarılan duz yalnız yerli tayfaların gündəlik tələbatını ödəmirdi, həm də qonşu ölkələrə ixrac edilirdi. Naxçıvan duzunun yüksək keyfiyyətli və təmiz olması onun iqtisadi dəyərini artırmışdır. Bu səbəbdən də, bölgədə istehsal olunan duzun Yaxın Şərq ölkələri ilə ticarət münasibətlərində mühüm rol oynadığı güman edilir.

Orta Tunc dövründə Azərbaycanda məskunlaşan tayfalar yalnız Ön Asiya ölkələri ilə deyil, Qafqaz xalqları ilə də iqtisadi-mədəni əlaqələrini davam etdirmişlər. Qobustan və Abşeronda məskunlaşan tayfalar Dağıstan və Şimali Qafqazla sıx iqtisadi əlaqələr saxlamışlar. Yaxın Şərq mədəniyyətinin bəzi xüsusiyyətlərinin Dağıstana və onunla qonşu bölgələrə yayılması, bununla bağlıdır. Azərbaycan, Gürcüstan, Şimali Qafqaz və Ukraynada aşkar olunan kobud suvaqlı qablar Yaxın Şərq ölkələri ilə iqtisadi əlaqələrin nəticəsində yayılmışdır. Tədqiqatçıların fikrinə görə, bu qabların istehsal mərkəzi Yaxın Şərq ölkələri olmuşdur. Azərbaycanın cənub rayonları üzrə xarakterik olan bu tip keramika Dağıstana, Şimali Qafqaza Azərbaycan vasitəsi ilə yayılmışdır (Baxşəliyev, 2007, s. 176).

Arxeoloji materiallar göstərir ki, Yaxın Şərqlə iqtisadi-mədəni əlaqələrin inkişafında nəqliyyat vasitələrinin və xüsusilə atın rolu böyük olmuşdur. At həm minik heyvanı, həm də qoşqu vasitəsi kimi istifadə edilirdi. Gəmiqayada qayaüstü təsvirlərdə araba şəkillərinin mövcudluğu təkərli nəqliyyatın geniş yayıldığını sübut edir. Azərbaycanın mühüm mədəni mərkəzləri – Urmiya hövzəsi, Naxçıvan, Mil düzü və Muğan bölgəsi Yaxın Şərq dövlətlərinə yaxın mövqedə yerləşdiyi üçün əlaqələrin intensivləşməsinə əlverişli şərait yaratmışdır. Bu münasibətlər Azərbaycan tayfalarının Qədim Şərq sivilizasiyalarının

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

nailiyyətlərini mənimsəməsinə və onların tərəqqisinə təkan vermişdir.

Eyni zamanda, Cənubi Qafqazın strateji mövqeyi regionun Yaxın Şərqlə intensiv əlaqələr qurmasına imkan vermişdir. Bu əlaqələr nəticəsində bölgəyə yeni texnologiyalar, sənətkarlıq metodları, keramika üslubları və dini təsəvvürlər gətirilmiş, eyni zamanda yerli resurslar və mədəni irs qonşu regionların inkişafına təsir göstərmişdir. Metallurgiya məhsullarının, boyalı keramikanın, duz ticarətinin, at və araba istifadəsinin yayılması bu qarşılıqlı təsirin konkret nümunələridir. Bu faktlar göstərir ki, Orta Tunc dövründə Azərbaycan yalnız passiv təsir qəbul edən bir region olmayıb, həm də fəal mədəni və iqtisadi rol oynamışdır. Nəticədə, Orta Tunc dövrü Cənubi Qafqazın qədim dünyada mədəni inteqrasiyada fəal iştirakının parlaq nümunəsi kimi qiymətləndirilə bilər və bu dövrün tədqiqi, həm yerli, həm də regional mədəni proseslərin anlaşılmasında mühüm əhəmiyyət daşıyır.

## Ədəbiyyat

1. Baxşəliyev, V. B. (2007). *Azərbaycan arxeologiyası (Ali məktəb tələbələri üçün vəsait).* Elm, 239.
2. Baxşəliyev, V. B., & Seyidov, A. Q. (1995). *Naxçıvanın qədim tarixi.* Azərbaycan nəşr., 62.
3. Burney, C. A. (1958). "Eastern Anatolia in the Chalcolithic and Early Bronze Age." *Anatolian Studies,* VIII, 157–199.
4. Seyidov, A. Q. (2000). *Naxçıvan Tunc dövründə.* Elm, 318.
5. Seyidov, A. Q. (2021). "Cənubi Qafqazın Orta Tunc Dövrü mədəniyyəti və Naxçıvan abidələri." *Tarix, İnsan və Cəmiyyət,* 1 (31), 94–99.
6. Simonyan, A. E. (1954). *Kul'tura epoxi sredney bronzy severnıx rayonov Armyanskogo nagor'ya.* Avtoreferat dissertatsii na soisk. kand. ist. nauk. Leninqrad, 19.

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

**Güllər Məmmədova**
Sumqayıt Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0006-7575-1580
memmedovaguller81@gmail.com

# X-XI sinif tarix dərslərində problem əsaslı təlimin tətbiqi zamanı şagirdlərin tarixi təfəkkür bacarıqlarının inkişafının pedaqoji-metodik əsasları

***Açar sözlər:*** *problem əsaslı təlim, tarix tədrisi, tarixi təfəkkür, mənbə təhlili, arqumentasiya, pedaqoji qiymətləndirmə*
***Keywords:*** *problem-based learning, history education, historical thinking, source analysis, argumentation, pedagogical assessment*

Müasir ümumtəhsil məktəbində tarix fənninin qarşısında duran əsas vəzifə yalnız tarixi faktların şagirdlərə çatdırılması ilə məhdudlaşmır. Təlim prosesi şagirdlərin hadisələri səbəb-nəticə əlaqələri əsasında izah etməsini, müxtəlif mənbələrdən alınan informasiyanı müqayisə etməsini və tarixi proseslər haqqında əsaslandırılmış mövqe bildirməsini təmin etməlidir. Bu baxımdan tarix dərslərində problem əsaslı təlimin tətbiqi xüsusi əhəmiyyət daşıyır. Problem əsaslı təlim şagirdi hazır bilikləri qəbul edən obyekt kimi deyil, araşdırma aparan, sual verən və nəticə çıxaran fəal subyekt kimi formalaşdırır (Abbasov, & Məmmədov, 2019).

IX-XI siniflərdə tarix fənninin məzmunu şagirdlərin daha mürəkkəb tarixi anlayışlarla işləməsini tələb edir. Bu mərhələdə şagirdlər artıq ayrı-ayrı faktları yadda saxlamaqla kifayətlənməməli, hadisələrin mahiyyətini, inkişaf

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

istiqamətlərini və sosial nəticələrini izah etməyi bacarmalıdırlar. Tarixi təfəkkür bacarıqlarının inkişafı məhz bu tələblərin yerinə yetirilməsi üçün zəruri metodik əsas yaradır. Tarixi təfəkkür dedikdə keçmiş hadisələri yalnız xronoloji ardıcıllıqla deyil, mənbələr, sübutlar, kontekst və müxtəlif baxış bucaqları əsasında dərk etmək bacarığı nəzərdə tutulur (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2020).

Ənənəvi tarix tədrisində dərsin əsas hissəsi çox vaxt müəllimin izahına və dərslik məlumatlarının təkrarına əsaslanmışdır. Belə yanaşma müəyyən faktoloji biliklərin formalaşmasına kömək etsə də, şagirdlərin müstəqil mühakimə yürütməsi üçün kifayət qədər imkan yaratmır. Problem əsaslı təlim isə dərsin mərkəzinə açıq sualı və ya ziddiyyətli situasiyanı gətirir. Şagirdlər bu sual ətrafında araşdırma aparır, fərqli məlumatları tutuşdurur və problemin izahı üçün məntiqi ardıcıllıq qururlar (Barrows, 1996).

Tarix dərslərində problem situasiyasının yaradılması metodun ilkin və ən mühüm mərhələsidir. Problem situasiyası şagird üçün aydın, maraqlı və araşdırıla bilən olmalıdır. Məsələn, bir tarixi islahatın nə üçün uğurlu və ya uğursuz nəticələndiyi, müəyyən müharibənin hansı siyasi və iqtisadi səbəblərdən baş verdiyi, yaxud eyni hadisəyə müxtəlif sosial qrupların niyə fərqli münasibət göstərdiyi kimi suallar şagirdlərin idrak fəallığını artırır. Bu tip suallar bir doğru cavabla məhdudlaşmadığı üçün şagirdləri sübut axtarmağa və öz fikirlərini əsaslandırmağa yönəldir.

Problem əsaslı təlimin tarix dərslərində tətbiqi zamanı müəllimin rolu dəyişir. Müəllim yalnız məlumat verən şəxs kimi çıxış etmir; o, araşdırma prosesini təşkil edən, istiqamətləndirən və şagirdlərin düşünmə fəaliyyətinə metodik dəstək göstərən rəhbər olur. Müəllim problemli sualın qoyuluşunu, istifadə ediləcək mənbələrin seçimini və müzakirənin ardıcıllığını

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

planlaşdırır. Bununla yanaşı, şagirdlərin müstəqil nəticə çıxarmasına şərait yaradır və hazır cavabları birbaşa təqdim etməkdən çəkinir (Əlizadə, 2016).

Şagirdlərin tarixi təfəkkür bacarıqlarının formalaşmasında mənbələrlə iş xüsusi yer tutur. Tarixi mənbələr yalnız dərslik mətni ilə məhdudlaşmamalıdır. Yazılı sənədlər, xəritələr, statistik cədvəllər, xatirələr, fotoşəkillər, karikaturalar və rəqəmsal arxiv materialları dərs prosesinə daxil edildikdə şagird hadisəni daha geniş kontekstdə dərk edir. Mənbələrin müəllifi, yaranma tarixi, məqsədi və etibarlılığı haqqında suallar şagirdlərdə tənqidi yanaşma və sübutla işləmə mədəniyyəti yaradır (Hmelo-Silver, 2004).

IX-XI sinif tarix dərslərində problem əsaslı fəaliyyətin səmərəli təşkili üçün tapşırıqlar mərhələli qurulmalıdır. Birinci mərhələdə problem müəyyənləşdirilir və şagirdlərdən ilkin fərziyyələr irəli sürmək tələb olunur. İkinci mərhələdə onlar mənbələri araşdırır, məlumatları seçir və əlaqələndirirlər. Üçüncü mərhələdə faktlar əsasında izah modeli qurulur. Son mərhələdə isə şagirdlər nəticələrini təqdim edir və sinif müzakirəsində mövqelərini müdafiə edirlər. Bu ardıcıllıq tarixi biliklərin passiv yadda saxlanılmasını deyil, onların düşünmə prosesində yenidən qurulmasını təmin edir.

Problem əsaslı təlim şagirdlərin arqumentasiya bacarıqlarının inkişafı üçün də əlverişli imkan yaradır. Tarix dərslərində arqumentasiya yalnız şəxsi fikrin bildirilməsi deyil, həmin fikrin mənbə, fakt və məntiqi izahla əsaslandırılması deməkdir. Şagird müəyyən tarixi hadisəyə dair mövqe irəli sürdükdə onun səbəblərini göstərməli, alternativ izahları nəzərə almalı və sübutların gücünü qiymətləndirməlidir. Bu proses şagirdlərin həm yazılı, həm də şifahi nitqində məntiqilik və ardıcıllıq yaradır (Hüseynova, 2021).

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

Tarixi təfəkkürün əsas komponentlərindən biri zaman və məkan kontekstini düzgün dərk etməkdir. Şagird hadisəni müasir baxışlarla deyil, həmin dövrün siyasi, iqtisadi və sosial şəraiti daxilində qiymətləndirməyi öyrənməlidir. Problem əsaslı təlimdə bu bacarıq xüsusi olaraq inkişaf etdirilir, çünki şagirdlər problemi həll etmək üçün hadisənin baş verdiyi dövrün şərtlərini nəzərə almağa məcbur olurlar. Bu yanaşma tarixi anaxronizmlərin və sadələşdirilmiş izahların qarşısını alır.

Qrup işi problem əsaslı tarix dərslərinin təşkilində mühüm metodik vasitələrdən biridir. Şagirdlər qrup daxilində müxtəlif rollar qəbul edir, mənbələri bölüşdürür, nəticələri müzakirə edir və ümumi təqdimat hazırlayırlar. Bu fəaliyyət əməkdaşlıq bacarığını inkişaf etdirməklə yanaşı, şagirdlərə fərqli mövqeləri dinləmək və öz fikirlərini əsaslandırmaq imkanı verir. Qrup müzakirələrində yaranan fikir müxtəlifliyi tarixi hadisələrin çoxcəhətli izahına şərait yaradır.

Problem əsaslı təlimin tətbiqi şagirdlərin dərsə motivasiyasını artırır. Tarix mövzuları real problem formasında təqdim edildikdə şagirdlər öyrəndikləri biliklərin praktik və idraki əhəmiyyətini daha aydın görürlər. Onlar dərsdə yalnız hazır məlumatı təkrar etmirlər, əksinə, sualın cavabını tapmaq üçün araşdırma aparır və öz nəticələrinə çatırlar. Bu isə öyrənməni daha mənalı və şəxsi təcrübə ilə əlaqəli edir (Savin-Baden, 2007).

Pedaqoji eksperiment problem əsaslı təlimin nəticələrini qiymətləndirmək üçün mühüm tədqiqat vasitəsi kimi çıxış edir. Eksperimental iş zamanı nəzarət və eksperimental siniflər üzrə ilkin və yekun diaqnostika aparıla bilər. İlkin mərhələdə şagirdlərin mənbə ilə işləmə, səbəb-nəticə əlaqəsi qurma və arqumentləşdirmə bacarıqları müəyyənləşdirilir. Təlim prosesində problem əsaslı tapşırıqlar sistemli tətbiq edildikdən

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

sonra həmin bacarıqların inkişaf dinamikası müqayisə olunur (Seixas, & Morton, 2013).

Qiymətləndirmə prosesi bu metodda yalnız yekun cavabın düzgünlüyünə əsaslanmamalıdır. Şagirdin problemi necə başa düşməsi, hansı mənbələrə müraciət etməsi, faktları necə seçməsi, ziddiyyətli məlumatları necə izah etməsi və nəticəni necə əsaslandırması ayrıca meyarlar kimi nəzərə alınmalıdır. Bu məqsədlə rubriklərdən istifadə səmərəlidir. Rubriklər şagirdə hansı fəaliyyətin necə qiymətləndiriləcəyini əvvəlcədən göstərir və təlim prosesini daha şəffaf edir.

Formativ qiymətləndirmə problem əsaslı tarix dərslərində xüsusi əhəmiyyət daşıyır. Müəllim araşdırma prosesində şagirdlərin irəliləyişini müşahidə edir, onların səhv yanaşmalarını vaxtında müəyyənləşdirir və düzəldici suallar verir. Belə qiymətləndirmə şagirdin yalnız nəticəsini deyil, düşünmə prosesini də izləməyə imkan yaradır. Nəticədə şagird səhvini hazır cavabla deyil, istiqamətləndirici suallar vasitəsilə anlayır və öz fəaliyyətini yenidən qurur (Torp, & Sage, 2002).

Tarix dərslərində problem əsaslı təlimin effektivliyi istifadə olunan mənbə və tapşırıqların keyfiyyətindən asılıdır. Tapşırıqlar şagirdin yaş xüsusiyyətlərinə, proqram materialına və mövzunun mahiyyətinə uyğun seçilməlidir. Çox mürəkkəb və ya faktoloji baxımdan ağır tapşırıqlar şagirdin motivasiyasını azalda bilər. Eyni zamanda həddindən artıq sadə tapşırıqlar da problemli düşünmə yaratmır. Buna görə müəllim tapşırıqları tədricən çətinləşdirməli və şagirdlərin hazırlıq səviyyəsini nəzərə almalıdır.

Rəqəmsal resurslardan istifadə problem əsaslı tarix dərslərinin imkanlarını genişləndirir. Elektron xəritələr, virtual muzeylər, rəqəmsal arxivlər və interaktiv zaman xətləri şagirdlərin araşdırma fəaliyyətini daha canlı və müxtəlif edir. Bununla yanaşı, rəqəmsal mühitdə informasiya çoxluğu

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

şagirdlərdən mənbənin etibarlılığını yoxlamağı tələb edir. Bu proses onların informasiya savadlılığını və tarixi mənbə tənqidi bacarıqlarını gücləndirir (VanSledright, 2014).

Problem əsaslı təlimin tətbiqində fənlərarası əlaqələr də mühüm rol oynayır. Tarixi hadisələrin öyrənilməsi coğrafiya, ədəbiyyat, iqtisadiyyat və hüquqla əlaqələndirildikdə şagirdlər hadisələri daha bütöv şəkildə dərk edirlər. Məsələn, sənaye inqilabı mövzusu iqtisadi dəyişikliklər, şəhərləşmə, sosial təbəqələşmə və texnoloji yeniliklər kontekstində təhlil edilə bilər. Bu cür yanaşma şagirdlərdə sistemli düşünmə və müxtəlif amilləri əlaqələndirmə bacarığı formalaşdırır.

Mənbə əsaslı müzakirələr problem əsaslı tarix dərslərinin əsas elementi hesab edilə bilər. Şagirdlər eyni hadisə haqqında fərqli mənbələri təhlil etdikdə tarixi biliklərin hazır və dəyişməz məlumatlar toplusu olmadığını anlayırlar. Onlar tarixçinin sübutlar əsasında izah qurduğunu, mənbələrin isə hər zaman müəyyən baxış və məqsəd daşıdığını görürlər. Bu anlayış tarixi təfəkkürün elmi xarakterini gücləndirir (Veysova, 2018).

Şagirdlərin reflektiv fəaliyyəti də bu metodun mühüm tərkib hissəsidir. Dərsin sonunda şagird öz fərziyyəsinin necə dəyişdiyini, hansı mənbənin onun fikrinə daha çox təsir etdiyini və hansı sualların açıq qaldığını ifadə etməlidir. Refleksiya şagirdə yalnız nə öyrəndiyini deyil, necə öyrəndiyini də anlamağa kömək edir. Bu isə gələcək araşdırma fəaliyyətinin daha şüurlu şəkildə qurulmasına şərait yaradır.

Problem əsaslı təlimin uğurlu tətbiqi müəllimin metodik hazırlığından asılıdır. Müəllim problemli sual qurmağı, mənbələri didaktik məqsədə uyğun seçməyi, müzakirəni idarə etməyi və qiymətləndirmə meyarlarını aydın şəkildə formalaşdırmağı bacarmalıdır. Bu bacarıqlar olmadan problem əsaslı təlim sadəcə sual-cavab formasına çevrilə və gözlənilən nəticəni verməyə bilər. Buna görə müəllimlərin peşəkar inkişaf

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

proqramlarında problem əsaslı tarix tədrisinin metodikası xüsusi yer tutmalıdır.

Təlim prosesində diferensial yanaşmanın təmin edilməsi də zəruridir. Sinifdə şagirdlərin hazırlıq səviyyəsi və maraqları eyni olmur. Buna görə problemli tapşırıqlar müxtəlif çətinlik səviyyələrində təqdim edilə bilər. Bir qrup əsas mənbənin məzmununu təhlil etdiyi halda, digər qrup həmin mənbəni əlavə statistik məlumat və xəritə ilə əlaqələndirə bilər. Bu yanaşma hər bir şagirdin öz imkanlarına uyğun şəkildə araşdırmaya qoşulmasını təmin edir.

Problem əsaslı tarix dərsləri şagirdlərdə vətəndaşlıq mövqeyinin formalaşmasına da təsir göstərir. Tarixi hadisələrin səbəb və nəticələrini araşdıran şagird ictimai proseslərin mürəkkəbliyini daha yaxşı anlayır. O, müxtəlif qərarların cəmiyyət üçün doğurduğu nəticələri təhlil edir və sosial məsuliyyət haqqında daha dərin təsəvvür əldə edir. Bu baxımdan tarix tədrisi yalnız bilik vermir, həm də şagirdin şəxsiyyət kimi formalaşmasına xidmət edir (Wineburg, 2001).

Metodun tətbiqi müəyyən çətinliklərlə də müşayiət oluna bilər. Vaxt məhdudluğu, mənbə seçiminin düzgün aparılmaması, sinifdə müzakirə mədəniyyətinin zəif olması və qiymətləndirmə meyarlarının qeyri-dəqiqliyi nəticələrin keyfiyyətinə təsir göstərir.

Ümumilikdə, IX-XI sinif tarix dərslərində problem əsaslı təlimin tətbiqi şagirdlərin tarixi təfəkkür bacarıqlarının inkişafı üçün səmərəli pedaqoji-metodik imkanlar yaradır. Bu metod şagirdləri faktların mexaniki mənimsənilməsindən uzaqlaşdırır, onları tarixi sübutlarla işləməyə, səbəb-nəticə əlaqələri qurmağa, fərqli baxışları müqayisə etməyə və əsaslandırılmış nəticə çıxarmağa yönəldir. Beləliklə, problem əsaslı təlim müasir tarix tədrisinin məzmununa uyğun olaraq şagirdin fəal, düşünən və araşdıran subyekt kimi formalaşmasına xidmət edir.

## Ədəbiyyat

1. Abbasov, A. N., & Məmmədov, Ə. Ə. (2019). *Pedaqogika*. Təhsil nəşriyyatı.
2. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2020). *Ümumtəhsil məktəbləri üçün tarix fənni üzrə kurikulum (V–XI siniflər)*. Təhsil nəşriyyatı.
3. Barrows, H. S. (1996). Problem-based learning in medicine and beyond: A brief overview. *New Directions for Teaching and Learning, 68*, 3–12.
4. Əlizadə, Ə. Ə. (2016). *Müasir təlimin psixoloji-pedaqoji əsasları*. ADPU nəşriyyatı.
5. Hmelo-Silver, C. E. (2004). Problem-based learning: What and how do students learn? *Educational Psychology Review, 16*(3), 235–266.
6. Hüseynova, S. (2021). Tarix dərslərində mənbə əsaslı təlimin tətbiqi. *Azərbaycan məktəbi, 4*(697), 53–61.
7. Savin-Baden, M. (2007). *A practical guide to problem-based learning online*. Routledge.
8. Seixas, P., & Morton, T. (2013). *The big six historical thinking concepts*. Nelson Education.
9. Torp, L., & Sage, S. (2002). *Problems as possibilities: Problem-based learning for K–16 education*. ASCD.
10. VanSledright, B. A. (2014). *Assessing historical thinking and understanding*. Routledge.
11. Veysova, Z. (2018). *Fəal/interaktiv təlim: Müəllimlər üçün vəsait*. Müəllim nəşriyyatı.
12. Wineburg, S. (2001). *Historical thinking and other unnatural acts: Charting the future of teaching the past*. Temple University Press.

Tarix elmlərində müasir tələblər və tədqiqatlar I Beynəlxalq Elmi Konfrans / 15 aprel 2026 / 78-87
Modern Requirements And Research In Historical Sciences I International Scientific Conference / 15 april 2026 / 78-87
https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

**Cavidan Cəfərli**
Bakı Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0001-7788-4145
cafarlicavidan00@gmail.com

# Sovet repressiya siyasətinin türk xalqlarının milli kimliyinə təsiri

***Açar sözlər:*** *Sovet repressiya siyasəti, türk xalqları, milli kimlik, deportasiya, etno-demoqrafik dəyişikliklər*
***Keywords:*** *Soviet repression policy, Turkic peoples, national identity, deportation, ethno-demographic changes*

SSRİ quruldudqdan sonra onun tərkibinə çoxsaylı türk xalqları daxil olmuşdu. Azərbaycan, Qazaxıstan, Axıska, Krım və Orta Asiya türkləri fərqli etno-demoqrafik şəraitdə yaşasalar da, müxtəlif dövrlərdə sovet repressiyalarının qurbanına çevrilmişdilər. Ümumittifaq siyahıyaalmaları SSRİ-də türk əhalisinin sayını müəyyənləşdirmək üçün əsas mənbə olsa da, bu rəqəmlər tam dəqiq deyildir. Çünki türklər bəzən başqa adlarla qeydə alınırdı. 1926-cı il siyahıyaalmasına görə SSRİ-də təxminən 16–18 milyon türk yaşayırdı. 1939-cu ildə bu rəqəm 20–23 milyona, ittifaqın sonuna doğru isə 50 milyondan çoxa çatmışdı. Beləliklə, türklər slavyanlardan sonra SSRİ-nin ən böyük etno-linqvistik qruplarından biri idi. Türklər Qafqaz, Volqaboyu, Krım və Orta Asiyada geniş şəkildə məskunlaşsalar da, mərkəzi hakimiyyət onları daim təhlükə kimi qiymətləndirirdi. Bu səbəbdən onların soydaşları ilə əlaqələrinin zəiflədilməsi, milli və ictimai təsir güclərinin

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

məhdudlaşdırılması istiqamətində siyasət yürüdülürdü. Müxtəlif dövrlərdə türk xalqları ata-baba yurdlarından sürgün edilmiş, ziyalı və elit təbəqə repressiyalara məruz qalmışdı. Bu siyasət xüsusilə Stalinin hakimiyyəti dövründə sistemli xarakter aldı. Azərbaycan, Qazaxıstan, Krım və Axıska türkləri bu qeyri-insani tədbirlərin ağır nəticələrini uzun illər yaşamış, hadisələr onların kollektiv yaddaşında silinməz iz qoymuşdu (Applebaum, 2003).

Sovet milli siyasəti formal olaraq xalqların bərabərliyini müdafiə etsə də, əslində sərt mərkəzləşmə və nəzarətə əsaslanırdı. İlk illərdə aparılan ərazi bölgüləri və sərhəd dəyişiklikləri türklər arasındakı tarixi və mədəni bağlılıqları zəiflətməyə xidmət edirdi. Xüsusilə Orta Asiyada sərhədlər etnik reallıqlardan çox siyasi məqsədlərlə müəyyənləşdirilmişdi. 1930-cu illərin kollektivləşdirmə siyasəti də ağır nəticələr doğurdu; Qazaxıstanda köçəri həyatın məcburi dayandırılması aclıq və kütləvi insan itkisinə səbəb oldu. 1937–1938-ci illərin "Böyük Terror"u zamanı minlərlə türk ziyalısı "pantürkizm" ittihamı ilə repressiyaya məruz qaldı. Bu faciələr İkinci Dünya müharibəsi illərində də davam etdi; Axıska türkləri və Krım tatarlarının sürgünü həmin bölgələrin demoqrafik quruluşunu köklü şəkildə dəyişdirdi.

Rejimin ilk illərində milli siyasət türk xalqları üçün həm müsbət, həm də mənfi nəticələr doğururdu. 1920-ci illərdə həyata keçirilən "korenizasiya" siyasəti milli elitaların formalaşmasına təkan verdi. Bolşeviklər "xalqların müqəddəratını təyinetmə hüququ" şüarı ilə geniş kütlələrə müraciət edir, çarizm dövründə sıxışdırılan türklər də bu vədlərə inanaraq bolşevizmi çıxış yolu kimi görürdülər. İlk dövrlərdə dil və təhsil sahəsindəki təşəbbüslər Leninin inqilabdan əvvəl

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

formalaşdırdığı milli siyasətə əsaslanırdı. O, xalqların hüquq bərabərliyi, dil azadlığı və təhsil müəssisələrində dil seçimi hüququnu müdafiə etdiyini bildirirdi (Uehling, 2004, s. 51). Lakin nəzəri prinsiplərlə reallıq arasında ciddi fərqlər mövcud idi.

Türk xalqlarının yaşadığı ərazilərə daxil olan Qırmızı ordu hissələri çox zaman özbaşına hərəkət edir, kəndlilər cəzalandırılır, əmlak talan edilirdi. Azərbaycan buna aydın nümunə idi. Hərbi hissələr yerli kommunist hakimiyyətin göstərişlərinə tabe olmur, müsəlman türk bəy və ağaları hərbi tribunalarda mühakimə edərək ya güllələyir, ya da sürgünə göndərirdilər. Bu repressiyalar 1937-ci il hadisələri qədər geniş olmasa da, əhalinin sosial-iqtisadi həyatına ciddi zərbə vurmuşdu. Oxşar vəziyyət bolşevik hakimiyyətinə daxil edilən digər türk torpaqlarında da müşahidə olunurdu.

Kollektivləşdirmənin ən ağır nəticələri isə 1932–1933-cü illərdə Qazaxıstanda yaşandı. Əsas iqtisadi modeli köçəri maldarlıq olan qazax cəmiyyəti bolşevik rəhbərlik tərəfindən “geri qalmış” hesab edilirdi. Bu səbəbdən maldarlar “bəy” və “kulak” damğası ilə sürgün edilir, mal-qara müsadirə olunur, əhali üzərinə ağır ət və taxıl planları qoyulurdu. 1929-cu ildə 40 milyon baş olan heyvan sayı 1933-cü ildə 4–5 milyona enmişdi. Nəticədə 1,5 milyondan çox qazax həlak olmuş, 1 milyondan artıq insan Çin, Əfqanıstan və İrana köç etmişdi (Uçar, n.d., s. 146). Aclığın miqyası şahidlərin xatirələrində də əks olunmuşdur. Semeydə çalışan bir müəllim tərk edilmiş aulda qucaqlaşmış iki skelet gördüyünü yazırdı (Uçar, n.d., s. 146). Uşaq yaşlarında hadisələrə şahid olan Demetken Şotbayev Daşkənd yollarının aclıqdan ölən insanların cəsədləri ilə dolu olduğunu xatırlayırdı. Özbəkistan rəhbərlərindən Kamil

Tarix elmlərində müasir tələblər və tədqiqatlar I Beynəlxalq Elmi Konfrans / 15 aprel 2026 / 78-87
Modern Requirements And Research In Historical Sciences I International Scientific Conference / 15 april 2026 / 78-87
https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

İkramov isə Qazaxıstan çöllərində “əllərində uşaq skeleti tutmuş yaşayan skeletlərin diləndiyini” qeyd etmişdi. Moskva ilkin mərhələdə bu köçləri “geri qalmış” köçəri həyatın aradan qalxması kimi qiymətləndirirdi. Lakin köç kütləviləşdikcə sərhədlər bağlandı, bəzi bölgələr “qara siyahı”ya salındı və ticarət qadağan edildi. Hadisələri araşdırmaq üçün yaradılan komissiya məsuliyyəti yerli hakimiyyətin üzərinə yönəldir, aclığı əhalinin mal-qaranı satması və nəzarətsizliklə izah etməyə çalışırdı. Filip Qoloşyokinin hesabatında da köçlərin və heyvan itkisini əsas səbəb kimi göstərən fikirlər yer alırdı (Uçar, n.d., s. 150). Lakin bu izahlar faciənin əsas səbəbini gizlədə bilmirdi. Sərt və plansız siyasət nəticəsində türk əhalisi sıxışdırıldı, milyonlarla insan ölüm və məcburi köçlə üzləşdi, qazaxlar isə öz vətənlərində demoqrafik azlığa çevrildilər.

Ziyalılar, cəmiyyət içində sayılıb-seçilən şəxslər Stalinin qəzəbinə tuş gəlir, Sibirə və digər ucqar yerlərə sürgünə göndərilirdi. Türk xalqları digər xalqlardan daha çox bu siyasətin qurbanına çevrilmişdilər. Repressiyalar türkləri həm fərdlər şəklində, həm də kütləvi olaraq yaxaladı. Azərbaycan, Qazaxıstan, Özbəkistan, Tatarıstan, Başqırdıstan və digər bölgələrdən minlərlə ziyalı, alim və din xadimi “millətçilik”, “pantürkizm” və “əks-inqilabçılıq” ittihamı ilə həbs edildi. Müsavatçılar, Cədidçilər və milli düşüncə sahibləri aradan qaldırıldı. Rəhbərlikdə yerli kadrların böyük əksəriyyəti dəyişdirildi (Uçar, n.d., s. 142). Türk xalqının tarixi və ədəbiyyatı sovet ideologiyasına uyğun şəkildə yenidən yazılmağa başlandı. Türk toplumunun intellektual genofondu təmizlənərək onun milli-mədəni həyatına zərbə vuruldu. Həmin ideologiyaya zidd olan əsərlər isə ittifaq daxilində qadağan edildi. Yeni nəsillər sovet insanı olmaq üçün yetişdirilir, türk

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

olduqları unutdurulurdu. İnsanlar arasında uzun illər qorxu və susqunluq hökm sürdü. Türkləri bir-birindən qoparmaq və nəsillərarası əlaqəni kəsmək üçün dil siyasətində də dəyişiklik edildi. Bu dövrə qədər ölkədə latın əlifbası istifadə olunurdu. Yerli dillərə də nisbətən azadlıq verilmişdi. Bu 1920-ci illərdə olan korenizasiya siyasətinin nəticəsi idi. Amma 1938-ci ildən sonra vəziyyət dəyişdi. Elə həmin ildə rus dili bütün ittifaqda məcburi tədris dili elan olundu. 1939-1940-cı illərdə isə kiril əlifbasına keçid prosesi başlandı. Belə bir addımın atılmasında bir neçə məqsəd güdülürdü. Başlıca məqsəd latın qrafikalı əlifbadan istifadə edən Türkiyə Cümhuriyyəti ilə ittifaq daxilindəki türklərin əlaqələrinin zəiflədilməsi idi. Türk toplumuna öz tarixi, irsi və milli adət-ənənələrini yadlaşdırmaq bolşeviklər üçün əsas qayə idi. Bunun sayəsində onlar bolşevik düşüncəli sosializmə xidmət edən vətəndaş cəmiyyəti yaratmaq istəyirdilər (Cameron, 2018).

SSRİ-nin mövcud olduğu dövrdə elə bir onillik olmamışdır ki, türk xalqları təqib, repressiya və deportasiyalara məruz qalmasın. Bu baxımdan Krım tatarlarının taleyi xüsusi əhəmiyyət daşıyır. Böyük Vətən Müharibəsi illərində belə sovet rəhbərliyi Krım tatarlarını nasistlərlə əməkdaşlıqda ittiham edərək onların kütləvi deportasiyasına qərar verdi. Halbuki fərdi məsuliyyət prinsipini tətbiq etmək əvəzinə bütün xalq cəzalandırıldı. Əməliyyat ciddi məxfilik şəraitində hazırlanmış, hətta iştirak edən əsgərlər də bundan son anda xəbər tutmuşdular. 18 may 1944-cü ildə NKVD qüvvələri Krım tatarlarının sürgününü həyata keçirməyə başladı. İnsanlar yük vaqonlarında Özbəkistan, Qazaxıstan, Tacikistan və Sibirə göndərildilər.

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

Rəsmi NKVD məlumatlarında deportasiya zamanı 191 nəfərin öldüyü göstərilsə də, statistik göstəricilər bunun həqiqəti əks etdirmədiyini göstərir. Mənbələrdə sürgün edilənlərin sayı 183 min 155, məskunlaşma yerlərinə çatanların sayı isə 176 min 746 nəfər kimi qeyd olunmuşdur ki, bu da ən azı 6 min nəfərin yolda öldüyünü göstərir. Krım tarixçiləri isə bu rəqəmlərin saxtalaşdırıldığını və yalnız sürgünlə bağlı ölüm faizinin 7–8 faiz, ilk illərlə birlikdə isə 40–46 faiz olduğunu qeyd edirlər (Lenin, 1913, s. 79-87). Deportasiya qərarı Krım alman işğalından azad edildikdən cəmi 13 gün sonra qəbul edilmişdi. Krım tatarlarının sovet qələbəsini sevinclə qarşılamasına dair şahid ifadələri də onların kollektiv şəkildə faşist tərəfdarı olduqları barədə ittihamların əsassızlığını göstərir (Lenin, 1913, s. 87). 1944–1989-cu illərdə sovet hakimiyyəti Krım tatarlarının tarixi yaddaşını silməyə yönəlmiş siyasət həyata keçirdi (Lenin, 1913, s. 79). Xatirələrin yazılması təhlükəli idi, savadsızlıq və müharibə səbəbilə təhsilin zəifləməsi isə yazılı mənbələrin yaranmasını çətinləşdirirdi. Buna görə Krım tatarlarının sürgün dövrünə dair mənbələr məhduddur. Deportasiya yalnız fiziki köçürmə deyil, milli kimliyin, tarixi yaddaşın və vətənlə bağlı kollektiv bağlılığın sistemli şəkildə dağıdılması idi. Axıska türklərinin taleyi isə müəyyən fərqlərlə oxşar nəticələr doğurdu. Onlar almanlarla əməkdaşlıqda ittiham edilməsələr də, 1944-cü ilin sonunda təxminən 100 min nəfər Mesxeti bölgəsindən deportasiya edildi. Türklərə köçün müvəqqəti olduğu və geri dönəcəkləri vəd edilsə də, bu baş vermədi. Əhali əsasən Orta Asiya respublikalarına göndərildi. Deportasiya humanitar normalardan uzaq şəraitdə aparıldı; insanlar yük vaqonlarında yemək və geyim təminatı olmadan daşınır, əmlakları müsadirə edilir, boşaldılmış evlərə isə xristian gürcülər yerləşdirilirdi. Bu

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

addımlar bölgənin demoqrafik quruluşunu dəyişdirdi. Köç zamanı çoxsaylı insan aclıq və susuzluqdan həyatını itirdi. Yeni məskunlaşdıqları yerlərdə Axıska türkləri uzun müddət tövlə və yarımçıq tikililərdə yaşamağa məcbur oldular, bəzən qida çatışmazlığından ot yeməli olurdular. Onlara sərt nəzarət sistemi tətbiq edilmişdi; yaşadıqları yer barədə mütəmadi hesabat verməli, qaydanı pozanlar isə ağır cəzalara məhkum edilirdi. Stalinin ölümündən sonra bəzi xalqların geri dönüşünə icazə verilsə də, Axıska türkləri, Krım tatarları və Volqa almanları bu hüquqdan məhrum edilmişdilər (Williams, 2015, s. 426–432). 1956-cı ildə onlara yalnız Gürcüstan istisna olmaqla SSRİ daxilində sərbəst köç hüququ tanındı. 1989-cu ildə Fərqanə vadisində Axıska türklərinə qarşı yenidən zorakılıq baş verdi. Bir qrup özbək millətçisi onların yaşadığı ərazilərə hücum etdi, evlər talan olundu və 100-dən çox insan öldürüldü. Sovet güc strukturlarının passivliyi fonunda türklər sonradan Mixail Qorbaçovun göstərişi ilə bölgədən təxliyə olundular. Hadisə şahidlərinin fikrincə, bu təxribat rus hakimiyyətinə qarşı artan narazılığı başqa istiqamətə yönəltmək məqsədi daşıyırdı. Nəticədə Axıska türkləri ikinci dəfə məcburi köçlə üzləşdilər və təxminən 70 min nəfər Azərbaycan, Qırğızıstan, Qazaxıstan və Krasnodar bölgəsinə yerləşdirildi. Deportasiyanın səbəbləri fərqli olsa da, nəticələr eyni idi: türk kimliyi, mədəni irs və tarixi bağlılıqlar ciddi zərbə almış, sürgünlər isə fiziki olduğu qədər sosial və psixoloji travmalar yaratmışdı. Axıska türklərinin yaşadıqları bu hadisələr onların kollektiv yaddaşında silinməz iz buraxaraq diaspora icmalarının formalaşmasına səbəb olmuşdur.

Təqdim olunan faktlar göstərir ki, SSRİ-də türklərə münasibət yalnız ayrı-ayrı hadisələr və ya müəyyən dövrlə məhdudlaşmır. Siyasət sistematik xarakter daşıyırdı. Məsələni

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

konseptual çərçivədə dəyərləndirdikdə sovet milli siyasətinin iki mərhələli və ziddiyyətli modeli ön plana çıxır. Birinci mərhələdə inkluziv inteqrasiya, sonrakı mərhələdə isə mərkəzləşdirilmiş assimilyasiya.

İttifaqın ilk illərində həyata keçirilən "korenizasiya" siyasəti formal olaraq yerli idarəetmə və milli mədəniyyətlərin inkişafını təşviq etsə də, əslində imperiya daxilində sabitliyin qorunmasına xidmət edən taktiki addım idi. Bu mərhələdə milli identiklik bolşevik ideologiyası ilə uzlaşdırılmağa çalışılırdı. Lakin 1930-cu illərdən, xüsusilə Stalinin hakimiyyətini möhkəmləndirməsindən sonra milli müxtəliflik təhlükə mənbəyi kimi qiymətləndirildi və yerliləşdirmə siyasəti mərkəzləşdirmə ilə ruslaşdırma siyasəti ilə əvəz olundu.

Türk xalqlarına qarşı həyata keçirilən siyasəti üç istiqamətdə təhlil etmək mümkündür. Birincisi, demoqrafik planlama idi. Qazaxıstandakı aclıq, Krım tatarları, Axıska türkləri və digər xalqların deportasiyası yalnız repressiya deyil, həm də etnik və demoqrafik quruluşun yenidən formalaşdırılmasına yönəlmiş dövlət siyasəti idi. Xüsusilə Krım tatarlarının 1944-cü il deportasiyası bölgənin demoqrafik simasını köklü şəkildə dəyişdirdi.

İkinci istiqamət elitaya zərbə və nəsillərarası bağlılığın qırılması idi. Böyük Terror illərində türk ziyalılarının "pantürkizm" və "əks-inqilabçılıq" ittihamları ilə məhv edilməsi milli düşüncə daşıyıcılarının sıradan çıxarılması demək idi. Bu proses yalnız fiziki repressiyalarla məhdudlaşmırdı; tarixin yenidən yazılması, dil siyasəti və əlifba dəyişiklikləri də kollektiv yaddaşın transformasiyasına xidmət edirdi. Latın əlifbasından kirilə keçid türk xalqları arasındakı mədəni əlaqələri zəiflədən həm simvolik, həm də praktik addım idi.

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

Üçüncü istiqamət isə “sovet insanı” modelinin formalaşdırılması idi. Formal olaraq xalqların bərabərliyi müdafiə olunsa da, reallıqda vahid ideoloji kimlik yaradılmağa çalışılırdı. Bu modeldə milli kimlik ikinci plana keçir, sosialist ideologiya əsas identifikasiya vasitəsinə çevrilirdi. Türklər üçün bu, milli-mədəni proseslərin zəifləməsi və nəsillərarası kimlik ötürülməsinin pozulması ilə nəticələnirdi.

Beləliklə, SSRİ-nin milli siyasəti ikili strategiya üzərində qurulmuşdu: əvvəlcə milli kadrlar sistemə cəlb edilərək legitimlik qazanılır, daha sonra isə potensial təhlükə sayılan qruplar nəzarət altına alınaraq zəiflədilirdi. Repressiya və deportasiya təcrübəsi türk xalqlarının kollektiv yaddaşında dərin izlər qoymuş, postsovet dövrdə milli yaddaş və tarixi ədalət axtarışlarına təsir göstərmişdir. Bu baxımdan sovet dövrü yalnız siyasi mərhələ deyil, türk xalqlarının müasir milli özünüdərk prosesinin əsas tarixi təməllərindən biri olmuşdur.

Aparılan araşdırmalar göstərir ki, SSRİ-də türklərə qarşı münasibət təsadüfi deyil, müəyyən ideoloji çərçivədə həyata keçirilən dövlət strategiyası idi. Savadlanma və urbanizasiya kimi müsbət dəyişikliklər mövcud olsa da, bunlar zorakı müdaxilələrlə müşayiət olunmuşdur. Türklər say və coğrafi yayılmalarına baxmayaraq siyasi etimadsızlıq obyektinə çevrilmiş, 1930-cu illərin repressiya, kollektivləşdirmə və deportasiya siyasəti onların təbii inkişafına ciddi maneələr yaratmışdır. Nəticədə yalnız insan itkisi deyil, milli kimliyin ötürülmə mexanizmlərinin zəifləməsi və tarixi yaddaşda boşluqlar meydana gəlmişdir. Bununla belə, bütün təzyiqlərə baxmayaraq türk milli kimliyi məhv olmamış, əksinə qeyri-rəsmi müstəvidə qorunaraq gələcək dirçəliş üçün sosial baza formalaşdırmışdır.

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

## Ədəbiyyat


1. Applebaum, A. (2003). *Gulag: A history*. Doubleday.
2. Cameron, S. (2018). *The hungry steppe: Famine, violence, and the making of Soviet Kazakhstan*. Cornell University Press.
3. Conquest, R. (1990). *The great terror: Stalin's purge of the thirties*. Oxford University Press.
4. Lenin, V. I. (1913). *Kriticheskiye zametki po natsional'nomu voprosu* [Critical notes on the national question].
5. Naimark, N. M. (2010). *Stalin's genocides*. Princeton University Press.
6. Uçar, F. (n.d.). *The Soviet deportation of the Meskhetian Turks*.
7. Uehling, G. L. (2004). *Beyond memory: The Crimean Tatars' deportation and return*. Palgrave Macmillan.
8. Williams, B. G. (2015). *The Crimean Tatars: From Soviet genocide to Putin's conquest*. Oxford University Press.

Tarix elmlərində müasir tələblər və tədqiqatlar I Beynəlxalq Elmi Konfrans / 15 aprel 2026 / 88-93
Modern Requirements And Research In Historical Sciences I International Scientific Conference / 15 april 2026 / 88-93
https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

**Şahnaz İmanlı**
Bakı Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0008-3250-4234
imanlisahnaz@gmail.com

# XX əsrdə Qarabağın regional ailə-məişət sistemi və mənəvi mədəniyyətinin tədqiqi problemləri

***Açar sözlər:*** *Qarabağ, ailə-məişət, mənəvi mədəniyyət, etnoqrafiya, etnik ənənə, regional xüsusiyyətlər*
***Keywords:*** *Karabakh, family-household, spiritual culture, ethnography, ethnic tradition, regional characteristics*

Hər bir xalqın etnik tarixinin, daxili strukturunun və mənəvi dünyasının öyrənilməsində ailə-məişət sistemi və mənəvi mədəniyyət elementləri mühüm fundamental baza rolunu oynayır. Bu baxımdan, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ bölgəsinin etnoqrafik müstəvidə tədqiqi xüsusi aktuallıq kəsb edir. XX əsr Qarabağın həm sosial-iqtisadi, həm də demoqrafik strukturunda ciddi transformasiyaların baş verdiyi bir dövr olmaqla yanaşı, həm də regional ailə dəyərlərinin və mənəvi mədəniyyətinin qorunub saxlanması baxımından mürəkkəb bir mərhələdir. Əsrin əvvəllərindəki ənənəvi cəmiyyət quruluşu, Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli intibah cəhdləri, ardınca gələn sovetləşmə, kollektivləşmə dalğası, sürətli sənayeləşmə və urbanizasiya prosesləri Qarabağ əhalisinin uzunəsrlik məişət strukturuna birbaşa təsir göstərmişdir.

Məlumdur ki, ailə təkcə bioloji və iqtisadi bir vahid deyil, həm də mənəvi mədəniyyətin, etnik stereotiplərin və davranış qaydalarının nəsildən-nəslə ötürüldüyü əsas sosiomədəni

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

mühitdir (Azərbaycan etnoqrafiyası 3 cilddə, 2007 s. 38). XX əsrdə Qarabağın regional ailə-məişət sistemində ənənəvi strukturlarla yanaşı, dövrün gətirdiyi yeni sosial institutların qarşılıqlı təsirini və bu təsir fonunda mənəvi mədəniyyətin necə transformasiyaya uğradığını öyrənmək etnoqrafiya elminin qarşısında duran əsas vəzifələrdən biridir. Qarabağın ailə-məişət sistemində mənəvi mədəniyyətin ən parlaq təzahürləri isə ailə tsikli mərasimlərində — toy, uşaq doğulması və yas ayinlərində cəmlənmişdir. Məsələn, Qarabağda ailə qurulması  sadəcə iki gəncin ittifaqı deyil, iki böyük nəslin, bəzən isə bütöv bir kənd icmasının iştirak etdiyi böyük bir sosiomədəni hadisə idi. Bu mərasimlərdə qorunub saxlanılan etnik ənənələr, simvolik rituallar (məsələn, gəlinin bəy evinə gətirilməsi ritualları, xonça bəzəmə, cehiz nümayişi və s.) regional ailə mərasimlərinin zənginliyini sübut edir (Paşayeva, 2006, s. 44). Bu mənəvi elementlər və rituallar etnik stereotipləri və nəsillərarası mənəvi bağı qoruyan ən mühüm mexanizmlər rolunu oynamışdır.

Bəhs olunan dövrdə Qarabağın  rayonlarında (məsələn, Şuşa, Ağdam, Cəbrayıl, Füzuli) hələ də ənənəvi böyük patriarxal ailələrin qalıqlarına rast gəlinirdi. Lakin əsrin ortalarına doğru sosial-iqtisadi şəraitin dəyişməsi ilə kiçik (nüvə) kənd ailəsi dominant forma xarakteri aldı. Qarabağ ailəsində daxili əmək bölgüsü spesifik xüsusiyyətlərə malik idi: təsərrüfatın idarə edilməsi, xüsusilə  maldarlıq və xalçaçılıq sahələrində qadın və kişi əməyi kəskin şəkildə ayrılırdı. Müasir kənd ailəsinin məişətində qadının ictimai əməyə cəlb olunması, onun ailədaxili statusunu yüksəltsə də, XX əsrin sonlarına qədər daxili idarəetmədə ağsaqqallıq və böyüklərə hörmət institutu həlledici rol oynamışdır. (Quliyeva, 2005, s. 76). Nikah və ailə münasibətlərinin genezisinə gəldikdə isə, Qarabağ etnoqrafik mühitində ekzoqamiya prinsipləri ilə yanaşı, müəyyən dövrlərdə mülkiyyətin və torpağın nəsildən kənara çıxmaması məqsədilə

endoqamik (əmiuşağı, xalaoğlu-xalaqızı) nikah formalarına da təsadüf edilirdi (Qeybullayev, 1994, s. 112). İslam hüququna əsaslanan kəbin kəsmə prosesində ("mehr" və ya "başlıq pulu" instansiyası) Qarabağda spesifik olaraq "cehiz xərci" forması önə çıxırdı. İslamda ailə münasibətlərini tənzimləyən şəriət qaydaları nikahın rəsmiləşdirilməsində və boşanma hallarının (talaq) minimallaşdırılmasında icma təzyiqi vasitəsilə mühüm mexanizm rolunu oynayırdı (Əliyev, 2003, s. 84). Qarabağ toylarında gəlinin bəy evinə daxil olduğu an ayağının altında qurban kəsilməsi, bəyin damdan gəlinin başına alma və ya şirniyyat atması (bərəkət simvolu) regionun ənənəvi mərasim mədəniyyətinin spesifik elementləridir. Qız tərəfinin hazırladığı cehizlərin (xüsusilə Qarabağ məktəbinə aid olan “Ləmpə”, “Çələbi” və ya “Malıbəyli” xalçalarının bəy evinə aparılması) nümayişi regional ailənin prestij göstəricisi hesab olunurdu.

Ailədə qız və oğlan uşaqlarının tərbiyəsi tamamilə fərqli funksional xarakter daşıyırdı (Quliyeva, 2005, s. 92). Oğlan uşaqları kiçik yaşlarından atanın yanında təsərrüfat işlərinə, xüsusilə Qarabağ atçılıq mədəniyyətinin elementlərinə (atın yəhərlənməsi, qulluq edilməsi) və heyvandarlığa alışdırılırdı. Qız uşaqları isə ananın rəhbərliyi altında 7-8 yaşlarından etibarən regional xalçaçılıq sənətinin sirlərinə yiyələnirdilər. Qarabağ ailəsində hər bir gənc qızın ərə getməzdən əvvəl öz cehizliyi üçün ən azı bir xalça (məsələn, “Balıq”, “Muğan” və ya “Xantirmə” naxışlı) toxuması yazılmamış bir məişət qanunu idi (Paşayeva, 2006, s. 61). Bu, həm ailənin maddi rifahının, həm də mənəvi-estetik zövqünün nəsildən-nəslə ötürülməsinin spesifik forması idi. Ailədaxili münasibətlərdə ər-arvad münasibətləri zahirən kəskin patriarxal xarakter daşısa da, daxili strukturda qadının (ağbirçəyin) rolu kifayət qədər böyük idi. Ər ailənin xarici dünyada təmsilçisi, maddi təminatçısı və rəsmi başçısı hesab olunurdu; onun sözü müzakirə edilmədən yerinə

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

yetirilməli idi. Lakin ailənin daxili iqtisadiyyatı, büdcənin xərclənməsi, uşaqların evləndirilməsi zamanı namizədlərin seçilməsi və daxili nizam-intizam bilavasitə arvadın nəzarətində olurdu (Quliyeva, 2005, s.104). Bölgədə şəriət qanunlarının və adətlərin paralel işləməsi ər-arvad arasındakı münasibətlərin etik çərçivəsini cızırdı. Məsələn, ictimai yerlərdə ərin arvadı ilə yan-yana deyil, bir neçə addım arxada getməsi və ya cəmiyyət içində bir-birinə adla deyil, dolayısı ilə ("uşaqların anası", "ev sahibi") müraciət etməsi regionun spesifik məişət etiketi idi. Bununla belə, ailədə qadına qarşı fiziki və ya mənəvi şiddət icma və qohumlar tərəfindən böyük qınaqla qarşılanır, bəzən bu cür hallar iki nəsil arasında ciddi qan davası və ya münaqişəyə səbəb ola bilirdi (Əliyev, 2003, s. 91).

Ata ilə övlad (xüsusilə oğlan uşaqları) arasında müəyyən bir psixoloji məsafə qorunurdu. Övladın atanın yanında uca səslə danışması, ayağını aşırıb oturması, onun icazəsi olmadan rəy bildirməsi birmənalı olaraq tərbiyəsizlik əlaməti sayılırdı. Hətta XX əsrin ortalarına qədər davam edən qədim adətə görə, gənc ata öz övladını öz atasının yanında qucağına almaz, onunla oynamazdı; bu, böyüklərə qarşı abır-həya mühitinin qorunmasına xidmət edirdi. Ata-oğul münasibətləri daha çox təsərrüfat tərəfdaşlığı və varislik prinsipləri üzərində qurulurdu. Ata oğluna subay ikən şəxsi mülkiyyət hüququ verməz, oğul qazandığı vəsaiti birbaşa ataya təslim edərdi. Qız övladları ilə ata arasındakı münasibət isə daha çox "şərəf və namus" kontekstində tənzimlənirdi; qızın davranışları bütövlükdə atanın cəmiyyətdəki başını uca və ya aşağı etmək gücünə malik idi. Ata ilə müqayisədə ana-övlad münasibətləri daha isti, emosional və səmimi idi. Ana Qarabağ ailəsində övladların atadan çəkindiyi məqamlarda əsas vasitəçi (körpü) rolunu oynayırdı. Gənc oğlanlar evlənmək istədikləri qızın adını, yaxud qızlar öz gələcək planlarını birbaşa ataya deyə bilmədikləri üçün ilk

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

növbədə anaya açardılar, ana isə bu məsələni münasib vaxtda və xüsusi etiketlə ailə başçısına çatdırardı. Ananın oğul üzərindəki haqqı (süd haqqı) müqəddəs hesab olunurdu. Qarabağ xalq inanclarında və andlarında "anamın südü haqqı" ifadəsi ən ali andlardan biri idi (Azərbaycan etnoqrafiyası 3 cilddə, 2007, s. 124). Qız övladının tərbiyəsində isə ana birbaşa rol model idi; "anasına bax qızını al, qırağına bax bezini al" atalar sözü məhz bu regional məişət təcrübəsindən doğmuşdu. Ana qızına təkcə ev işlərini və toxuculuğu öyrətmir, həm də gələcəkdə gedəcəyi evdə qayınana, qayınata və baldızlarla necə rəftar etməyin, ailə sirrini kənara çıxarmamağın sirlərini — regional gəlinlik davranış kodeksini aşılayırdı (Quliyeva, 2005, s. 118).

XX əsrdə Qarabağın regional ailə-məişət sistemi və mənəvi mədəniyyətinin tədqiqi göstərir ki, bu bölgə Azərbaycan etnoqrafiya elmində unikal və zəngin bir arealı təmsil edir. Əsr boyu baş verən mürəkkəb sosial-siyasi və iqtisadi proseslər, xüsusilə sovetləşmə dövrünün gətirdiyi yeni ictimai institutlar ənənəvi böyük patriarxal kənd ailələrinin kiçik (nüvə) ailə modelinə keçidini sürətləndirsə də, ailənin daxili mənəvi sütunlarını tamamilə dəyişdirə bilməmişdir. Ailədaxili ər-arvad, ata-övlad və ana-övlad münasibətlərində qorunub saxlanılan abır-həya, ağsaqqallıq institutu, gender rollarına uyğun əmək bölgüsü və regional toy-yas mərasimləri etnik identifikasiyanın qorunmasında əvəzsiz rol oynamışdır. Regional geyim elementləri, məişət memarlığı və yazılmamış qanun statusunda olan qonaqpərvərlik institutu Qarabağın yüksək daxili sosiomədəni strukturunu sübut edir.

https://doi.org/10.36719/2706-6185/I/TEMTT/BK/QD/2026

## Ədəbiyyat

1. Azərbaycan etnoqrafiyası. (2007). *Azərbaycan etnoqrafiyası* (C. 2). Şərq-Qərb.
2. Əliyev, R. (2003). *İslamda ailə və nikah münasibətləri*. İrşad.
3. Paşayeva, M. (2006). *Azərbaycanlıların ailə mərasimlərində etnik ənənələr*. Azərnəşr.
4. Qeybullayev, Q. (1994). *Azərbaycanlılarda ailə və nikah* (I–II hissələr). Elm.
5. Quliyeva, N. (2005). *Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti*. Elm.

# İÇİNDƏKİLƏR

## CONTENTS

**Xəzər Hüseynov, Elnar Əlizadə**
İkinci Dünya müharibəsinin başlanması: Naxçıvan Muxtar Respublikasında hərbi səfərbərlik……………………………………….....5
**Saidə Babayeva**
Ortaq türk abidələri arxeoloji və yazılı tədqiqatlarda…………....11
**Arzu Xəlilzadə**
Azərbaycan Respublikasında kosmik sənayenin inkişafı tarixinə dair ........................................................................................ 14
**Elmira Aliyeva**
The Importance of Telegraph Lines in the South Caucasus During XIX Century ............................................ 20
**Bikə Fərmanzadə**
İran–İsrail qarşıdurmasının tarixi kökləri və müasir geosiyasi təsirləri ............................................................................ 26
**Sabir Əhmədov**
Tayvan tarixinin dövrləşməsinə dair ................................................ 30
**Nəsrin Mehdiyeva**
Cənubi Qafqazda sovet milli-dövlət quruculuğu və etnoərazi ziddiyyətlərinin formalaşması………………………………..37
**Yaqut Tağıyeva**
Yurdumun qədim tarixdən bu günə uzanan sarsılmaz addımları ....................................................................... 45
**Zenfira Seyidova**
Naxçıvan muzeylərində tarixi yaddaşın qorunması və maddi-mədəni irsin ekspozisiya vasitəsilə təqdimatı..........................................................................53
**İbrahim Əfəndiyev**
Hunların digər türk xalqları ilə əlaqələri.........................................59

**Nuray Məmmədli**
Orta Tunc dövrü mədəniyyətinin
Yaxın Şərq və Cənubi Qafqazla əlaqələri............................................63
**Güllər Məmmədova**
X-XI sinif tarix dərslərində problem əsaslı
təlimin tətbiqi zamanı şagirdlərin tarixi təfəkkür bacarıqlarının
inkişafının pedaqoji-metodik əsasları…………………………………70
**Cavidan Cəfərli**
Sovet repressiya siyasətinin türk xalqlarının milli kimliyinə təsiri.......78
**Şahnaz İmanlı**
XX əsrdə Qarabağın regional ailə-məişət sistemi və
mənəvi mədəniyyətinin tədqiqi problemlər..........................................88

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Yasamal r-nu,
A.M.Şərifzadə 19
Tel.: +994 99 807 67 68
+994 99 808 67 68
e-mail: new.history.bek@gmail.com

**Editorial address**
AZ1073, Baku city,
Yasamal dist.,
AM.Sharifzade 19
Phone: +994 99 807 67 68
+994 99 808 67 68
e-mail:new.history.bek@gmail.com

İmzalandı: 09.04.2026
Onlayn çap: 15.04.2026
Kağız formatı: 60x84, 1/16
H/n həcmi: 3, 5 ç.v.
Sifariş: 163

aem.az saytında çap edilmişdir.
Ünvan: Bakı şəh., Yasamal r-nu,
A.M.Şərifzadə 19
Tel.: +994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru

Signed: 09.04.2026
Online publication: 15.04.2026
Format: 60/84, 1/16
Stock issuance: 3, 5 p.s.
Order: 163

It has been published on aem.az
Address: Baku city, Yasamal dist.,
A.M.Sharifzade 19
Phone: +994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru